www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 yanvar 2017-ci il Çərşənbə axşamı № 21 (6635) Qiymәti 60 qəpik

**Xəbər**

## Veteran futbolçu Maşallah Əhmədov məhkəmədə qandallandı - 8 il cəza

yazısı səh.14-də

**Gündəm**

### Prezidentdən məmurlara sərt xəbərdarlıq



**İlham Əliyev:** "Məmur yekəxanalıq etməməli, qanunsuz tələb irəli sürməməli, rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır"

yazısı səh.5-də

### Azərbaycanda siyasəti də böhran vurub...

yazısı səh.7-də

### Rəsulzadənin birləşdirə bilmədiyi müxalifət...

yazısı səh.6-da

### Daha bir REAL funksioneri Baş Prokurorluqda dindirildi

yazısı səh.13-də

### Baş həkim 5 saylı xəstəxananın girişindəki şüardan danışdı

yazısı səh.6-da

### Tramp qaçqın və miqrant məsələsinə görə Amerikanı qaynadır

yazısı səh.13-də

### Dünyanın ən sabit ölkəsinə də terror ayaq açdı-Kanadada qətliam...

yazısı səh.9-da

### İntihar edən əsgər Xanəli Fəttayev torpağa tapşırıldı

yazısı səh.4-də

### Xalqı qəzəbləndirən deputatları susdurmağın qanuni yolu tapılıb

yazısı səh.12-də

### Bakı küçələrini qardan niyə yaşlı qadınlar təmizləyir...

yazısı səh.15-də

### Məcburi köçkün yataqxanalarında sayğaclar qurulur

yazısı səh.12-də

## Azərbaycan İrəvana qarşı strategiyasını sərtləşdirir

# QARABAĞDA MİNİ-MÜHARİBƏLƏR TAKTİKASI - BAKININ YENİ YOL XƏRİTƏSİ

İşğalçıya qarşı çoxşaxəli diplomatik həmlələr; - rusiyalı ekspert ədalətli sülh və Azərbaycan iqtisadiyyatı üçün ən optimal yolu göstərdi




yazısı səh.8-də

## Kəşfiyyat müharibələrinin qurbanları - ilginc faktlar

Maşınında, bağ evində meyiti tapılan zabitlərin ölüm hekayələri

yazısı səh.3-də



*Elxan Şahinoğlu:* "Ermənilər bilir ki, Azərbaycan Cocuq Mərcanlı ilə kifayətlənməyəcək"

yazısı səh.4-də



### Putini güclü edən səbəb - sərvəti, yoxsa siyasəti...

yazısı səh.10-da



*Vaqif Əsədov:* "Piyadalar üçün cərimə məbləğinin artırılması nizam-intizama təsir göstərəcək"

yazısı səh.15-də

YENİ MÜSAVAT
N 21 (6635) 31 yanvar 2017



# “Gömrük Komitəsi iş adamları ilə dialoqa hazırdır”

## Aydın Əliyev: “Pulların ”qara bazar"da gəzməməsi üçün qiymətləndirmə aparılacaq"

**“Çox təəssüf ki, bəzi iş adamları idxal-ixrac əməliyyatları zamanı malların qiymətini aşağı salmaqla vergidən yayınmağa çalışır”. APA xəbər verir ki, bunu “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda Dövlət Gömrük Komitəsinin (DGK) sədri Aydın Əliyev deyib:**

“Əvvəllər idxal olunan malların qiymətinin aşağı salınması problemi daha çox qeydə alınırdısa, indi ixrac olunan malların qiymətinin azaldılması hallarına rast gəlirik. Dövlət Gömrük Komitəsi tərəfindən işçi qrup yaradılıb. İşçi qrupla internet və birja məlumatları əsasında bu qiymətləri müqayisə edəcəyik. Qiymətləndirmə aparılmalıdır ki, pulların ”qara bazar"da gəzməsinə ehtiyac olmasın. Üç nazirlik tərəfindən hökumət qarşısında məsələ qaldırılıb. Azərbaycanda yerli istehsalı artırmaq və daxili bazarı qorumaq üçün bir sıra məhsullara vergi tətbiq etdik".

“2016-cı ildə ölkə başçısı tərəfindən gömrük sahəsində mühüm sərəncamlar imzalanıb və bizim qarşımızda mühüm tapşırıqlar qoyulub. Gömrük orqanları tərəfindən bu tapşırıqların icrası ilə bağlı təxirəsalınmaz tədbirlər görülüb. Bu baxımdan ötən il gömrük orqanlarının üçün əhəmiyyətli il olub” - Aydın Əliyev deyib.

**A. Əliyev əlavə edib ki, gömrük orqanları fəaliyyətinin tam şəffaf qurulmasına çalışıb. Komitə sədri qeyd edib ki, fəaliyyətində nöqsanlara yol verən gömrük əməkdaşları ciddi cəzalandırılıb:** “2015-2016-cı illərdə 503 əməkdaş intizam qaydasında məsuliyyətə cəlb edilib. Keçən il 80-dən çox gömrük əməkdaşı vəzifəsini itirib. 10-a yaxın əməkdaş barəsində materiallar Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndərilib. Hazırda bu məsələ ilə bağlı işlər davam etdirilir. Təqdimatımız əsasında korrupsiyaya yol verən əməkdaşlar layiqli cəzasını alıb”.

A. Əliyev bildirib ki, “Yaşıl dəhliz”in tətbiqi komitənin qarşısında duran ən mühüm vəzifələrdən biridir: ““Yaşıl dəhliz”in tətbiqi ilə bağlı mühüm sərəncam verilib. Bu sərəncam elə hazırlanıb ki, komitə tərəfindən normativ sənədlərin hazırlanmasına ehtiyac yaranmayıb. Bu sərəncamda hədəflər konkret göstərilib. Hazırda 9 şirkət “Yaşıl dəhliz”in istifadəçisidir. Biz biznes adamları ilə dialoqa hazırıq. Şirkətlərin təkliflərini nəzərə almağa və bu işi davam etdirməyə hazırıq”.

# İki qardaş psixotrop dərman atdı: biri öldü, o biri ağır durumda

**Bakıda iki qardaş dərmandan zəhərlənib. Lent.az Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, yanvarın 29-da Nərimanov rayonu ərazisində yaşayan Dadaş İsmayılov və qardaşı Ağami dərmandan zəhərlənmə ilə xəstəxanaya gətirilib, Dadaş orada ölüb.**

Bakıda iki qardaşın dərmandan zəhərlənməsi hadisəsi ilə bağlı bəzi məqamlar aydınlaşıb. Lent.az xəbər verir ki, Ağami və Dadaş İsmayılov qardaşlarının Nərimanov rayonunda yaşadıqları evdə yüksək dozalı və narkotik tərkibli anti-depressiv dərman qəbul etdiyi məlum olub. Təxminən 5-6 saat evdə huşsuz vəziyyətdə qalan qardaşlardan daha ağır vəziyyətdə olan Dadaş İsmayılov təcili olaraq yaxınlıqdakı 5 saylı xəstəxanaya aparılıb. Həkimlərin səyinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb. Ağami Dadaşov isə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə yerləşdirilib. Onun vəziyyəti ağır qiymətləndirilir.

Araşdırma aparılır.

“Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Əhəd Abıyevin qardaşı vəfat edib

**Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevə ağır itki üz verib. Onun qardaşı İbrahim Abıyev yanvarın 30-da vəfat edib.**



Musavat.com-un əməkdaşı məlumatı dəqiqləşdirmək üçün Ə.Abıyevlə əlaqə saxlayıb. O, məlumatı təsdiqləyib və bildirib ki, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransda iştirak etmək üçün Bakıya gəlibmiş: “Tədbirdə mobil telefonumu söndürmüşdüm. İclas yekunlaşanda telefonu açdım, açan kimi də qardaşım oğlu zəng edib bu qara xəbəri dedi. İbrahim müəllim bizim qardaşımız idi. Təəssüf ki, onu bu gün itirdik. Xəbəri eşidincə, çox pis oldum, halım pisləşdi, amma heç kimə bildirmədim, təcili sürücünü çağırdım”.

Ə.Abıyev bildirib ki, qardaşı İbrahim Abıyev 75 yaşında idi. 1 ay imiş ki, xəstə yatırmış. O deyib ki, hazırda mərhumun nəşini doğulduğu Masallı rayonuna aparırlar. Əhəd Abıyev onu da deyib ki, dəfn yanvarın 31-də Masallıda olacaq. Fevralın 1-də isə Masallı rayonunda mərhumun 3-7 mərasimi keçiriləcək.

İbrahim Abıyev 1942-ci ildə Masallı rayonunda anadan olub. Uzun müddət inşaat sahəsində çalışıb. Bakı Baş Tikinti İdarəsində idarə rəisi işləyib. Əməkdar inşaatçı fəxri adına layiq görülüb.

**Allah rəhmət eləsin.**



# Texasda məscidə od vurdular

**ABŞ prezidenti Donald Tramp İraq, Suriya, İran, Sudan, Liviya, Somali və Yəməndən müsəlmanların ölkəyə girişini yasaqlayandan sonra Birləşmiş Ştatlarda müsəlmanlara qarşı dözülməzlik aksiyaları şiddətlənib.**

Milli.Az ABC-yə istinadən bildirir ki, Donald Tramp bununla bağlı sərəncamı imzalayandan cəmi bir neçə saat sonra Texas ştatındakı Viktoriya şəhərində yerləşən məscid yandırılıb. Viktoriya İslam Mərkəzinin (İslamic Center of Victoria) nəzdindəki məscid əvvəllər də ekstremistlərin hücumlarına məruz qalmışdı.

Şəhərin yanğınsöndürmə xidmətinin rəisi Tom Leqler olayla bağlı araşdırmaların sürətləndirilməsi üçün xüsusi xidmət orqanlarından yardım istəyib. Mərkəzin direktoru Şahid Həşmi isə məsciddəki yanğının səbəbləri tam aydınlaşdırılana qədər şayiələr yaymamağı xahiş edib.

“Yanğından əvvəl siqnalizasiya işləməyib. Məscidin qapıları da bağlı qalıb. Lakin yanvarın 21-də gecə kimsə məscidə girərək elektron avadanlığı, o cümlədən noutbukları aparmışdı”. 2001-ci il sentyabrın 11-də teraktlar olanda müsəlmanlar və qeyri-müsəlmanlar - hamımız bir yerdə idik. Təbii ki, məscid tam təmir ediləcək", - Şahid Həşmi deyib.

Məscidin təmiri ilə bağlı internetdə kampaniya başlayıb. Təmirə gərəkli olan 850 min dolların 511 min dolları artıq yığılıb.



# Ötən ilin “yol terroru” - 759 ölü, 2003 yaralı

**2016-cı il ərzində Azərbaycan ərazisində 2006 yol nəqliyyat hadisəsi qeydə alınıb. «Trend»in məlumatına görə, baş vermiş hadisələr nəticəsində 759 nəfər həlak olub, 2003 nəfər yaralanıb. 2015-ci illə müqayisədə yol nəqliyyat hadisələrinin sayı 214 fakt (9,6 %), həlak olanların sayı 135 nəfər (15 %), yaralananların sayı isə 262 nəfər (11,6 %) azalıb.**

Bakı şəhəri ərazisində 684 yol nəqliyyat hadisəsi qeydə alınıb, bunların nəticəsində 192 nəfər həlak olub, 691 nəfər yaralanıb. 2015-ci illə müqayisədə yol nəqliyyat hadisəsinin, həlak olanların və yaralananların sayı uyğun olaraq 113 fakt (14,2 %), 37 nəfər (16,2 %) və 159 nəfər (18,7 %) azalıb.

Respublika üzrə qeydə alınmış yol nəqliyyat hadisəsinin 95,2 %-i (1910) sürücülərin yol hərəkət qaydalarını pozmaları, o cümlədən 38,1 %-i (764) ötmə və qarşıdan gələn nəqliyyatın yoluna çıxma, 22,6 %-i (453) nəqliyyat vasitələrinin yüksək sürətlə idarə olunması, 12,8 %-i (257) yolayrıclarını keçmə qaydalarının pozulması, 1,7 %-i (34) nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması səbəbindən baş vermişdir. Yol nəqliyyat hadisəsinin 44 %-ni (882) piyadaların vurulması təşkil edib, nəticədə 319 piyada həlak olub, 643-ü yaralanıb. 59 yol nəqliyyat hadisəsi piyadaların yol hərəkət qaydalarını pozmaları nəticəsində baş verib. Respublika üzrə qeydə alınmış yol nəqliyyat hadisələri nəticəsində 53 uşaq və yeniyetmə həlak olub, 186 nəfər yaralanıb. Ümumiyyətlə qeydə alınmış yol nəqliyyat hadisələri nəticəsində həlak olmuş 759 nəfərdən 583-nü kişilər, 176-nı qadınlar, xəsarət almış 2003 nəfərdən isə 1414-nü kişilər, 589-nu qadınlar təşkil ediblər.

# Qar yağacaq, yollar buz bağlayacaq

**Bakı və Abşeron yarımadasında yanvarın 31-də havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir.**

Mülayim şimal-qərb küləyi arabir güclənəcək.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 0-3° şaxta, gündüz 1-3° isti, Bakıda gecə 1-3° şaxta, gündüz 1-3° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunundan 771 mm civə sütununa yüksələcək. Nisbi rütubət 85-95 % təşkil edəcək.

Gecə və səhər yolların buz bağlama ehtimalı var.

Tibbi-meteoroloji proqnoza əsasən, yanvarın 31-i, fevralın 1-də Abşeron yarımadasında xəzri küləyi və yağıntılı hava şəraiti fonunda soyuq temperatur diskomfortu meteohəssas insanlar üçün çox əlverişsizdir.

Yanvarın 31-dən fevralın 2-dək Bakıda və Abşeron yarımadasında hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə arabir intensivləşəcəyi ehtimalı var. Şimal-qərb küləyi arabir güclənəcək. Havanın minimal temperaturu 1-5° şaxta təşkil edəcək. Yolların buz bağlama ehtimalı var.

Azərbaycanın rayonlarında havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 1-5° isti, dağlarda gecə 15-20° şaxta, gündüz 5-10° şaxta olacağı gözlənilir. Yollar buz bağlayacaq.

Fevralın 2-si gündüzədək ölkə ərazisində qeyri-sabit hava şəraiti davam edəcək. Arabir yağıntı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Yollar buz bağlayacaq.

# Şirvan sakininə 70 manata görə 8 il həbs cəzası verilib

**Bakı Ağır Cinayətlər Məhkəməsində qulduruqda təqsirləndirilən Orxan Xurşudlunun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın xəbərinə görə, hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Hökmə əsasən, O. Xurşudlu 8 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Yasamal rayon 29-cu Polis Bölməsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ötən il iyunun 22-də Orxan Mürsəlovun 70 manat pulunu quldurluq yolu ilə almış Şirvan şəhər sakini Orxan Xurşudlu tutulub.

**Britaniya adası dünyanın ən qəribə, müəmmalı, sehirli ünvanlarından biridir desəm, çoxları buna dodaq büzər. Hələ üstəlik, arxamca bir-iki yağlı atmaca da atarlar. Bu "uzaq, yaşıl ada" 16-cı əsrə kimi İngiltərə adlansa da, sonra qəfil adını Britaniya kimi dəyişib. Bizim Dərviş Məstəli Şahı xatırladan kimyagər Con Di kraliça 1-ci Yelizavetanın qulağına pıçıldayıb ki, bəs İngiltərə adı uğursuzdu. Bəs gəl, bu adanın çox qədim Britaniya adına qayıdaq. Hüdudsuz, nəhəng-nəhayətsiz imperiyaya çevrilməyimiz, vallah, yalnız bax, bu vacib şərtə bağlıdır axı...**







# Kəşfiyyat müharibələrinin qurbanları - ilginc faktlar

## Maşınında, bağ evində meyiti tapılan zabitlərin ölüm hekayələri

***

Həmin bax bu kimyagər Con Di öz tələbəsi Edvard Kelli ilə həm də eyni yuxular görərmiş guya. Məhz bu möcüzəli yuxular vasitəsilə onlar "aləmi məlakut"ə, qeyb aləminə birbaşa daxil olar, ordan ingilis kəşfiyyatı üçün çox ciddi məxfi xəbərlər gətirirmişlər. Məsələn, ispan kralı 2-ci Filipp, İngiltərə üzərinə məşhur "Böyük armadası"nı, yəni gəmi donanmasını göndərəndə, Yelizaveta cavab olaraq yenə də Con Dinin mistik təcrübəsinə müraciət edir.

Con Di Edvard Kelli ilə gördüyü eyni yuxuda həmin ispan donanmasının dəqiq yerini, dənizdəki dəqiq coğrafi koordinatlarını müəyyən edirlər. Nəticədə Britaniya admiralları düşmənə dənizdə pusqu qurmağı bacarır, həmin yerdə ispanları darmadağın edirlər. Qeyd edim ki, ilk Agent-007 ləqəbi məhz Con Diyə məxsus imiş vaxtilə. Con Di kraliça Yelizavetaya göndərdiyi məxfi bilgilər altına, məhz bu imzasını qoyarmış, sən demə. Britaniya kəşfiyyatı Mi-6 bəlkə elə indi də həmin "eyni yuxu", "agent 007" ənənəsini yaşadır. İngilis yazarı Piter Akroydun "Doktor Dinin evi" romanını oxusanız, bu mövzu sizin üçün daha da dolğunlaşar. Düzdü, eyni yuxular mövzusu yox, başqa gizli mətləblər var orda. Ancaq nə olsun, agent 007 reallıqlarını bilmək bu əsəri oxumadan qətiyyən mümkün deyil.

Şərqdə isə "eyni yuxu" mövzusu, yadda saxlayın, Şəms Təbrizi ilə Cəlaləddin Rumi arasında mövcud imiş. Qeyb aləminə onlar da oxşar mistik üsul vasitəsilə daxil olub, ordan xəbərlər gətirərdilər.

***

Son zamanlar bu "uzaq, yaşıl adada" baş vermiş müəmmalı, qatı açılmamış silsilə qətllər - sabiq xüsusi agent Litvenenkonun, o cümlədən oliqarx Berezovskinin izahsız, müəmmalı ölümü bizi məcbur edir ki, yenidən Con Dinin mistik təcrübəsinə qayıdaq.

Bəli, Britaniya xalqı son zamanlar böyük təşviş, sarsıntı içindədir - müxtəlif kəşfiyyatçıların izahsız, müəmmalı, silsilə qətlləri ölkədə... ölkədə nədi, dünyanın dörd guşəsində bitib qurtarmır ki, qurtarmır. "Ölüm siyahısında növbə kimindi", "Bu cinayətindəmi üstü açılmayacaq" sualları "The Guardian", "The Independent ", "The Daily Telegraph", "The Sunday Times" kimi sanballı qəzetlərin manşetlərindən nə vaxtdır düşmək bilmir ki, bilmir.

Üstü açılmamış bu kəşfiyyatçı qətlləri silsiləsində, sırasında bizi ilk olaraq Mİ-6 zabiti Haret Uilyamsın müəmmalı, tapmaca dolu qətli maraqlandırdı. Sonra Rusiya oliqarx Berezovskinin fantastik, sual dolu ölümü. Soruşacaqsınız "niyə?" Bircə cavabım var sualınıza - qətllər arasında qəribə oxşarlıqlar var. Hər iki ölüm faktı, tam qapalı, germetik, belə deyək, indi güvənin belə girə bilməyəcəyi əlçatmaz ünvanlarda baş verib axı. İkincisi, bütün ipucları fırlanıb-fırlanıb MDB ölkələrinə gedib çıxır bu qətllərdə. Məşhur "Uzaq sahillərdə" filmində deyildiyi kimi, "Eyni dalğa, eyni koordinat".





Qətllər arasında təkzibolunmaz əlaqələr mövcuddur. Söhbətimizi başlayaq Government Communications Headquarters (GCHQ) - Böyük Britaniya Dövlət Rabitə Mərkəzi əməkdaşı Haret Uilyamsın qəribə ölüm səhnəsindən.

***

2010-cu ilin avqustunda Londonda müəmmalı bir qətl hadisəsi baş verib. Şəffaf idman çantası içindən Britaniya kəşfiyyatçısı Haret Uilyamsın cəsədi çıxır. Sonra bəlli olur ki, mərhum postsovet oliqarxlarının maliyyə transferlərini güdürmüş. "Formula-1" yarışlarında adı hallanan Qazaxıstan milyarderi Alican İbrahimovun oğlu Furqatla yaxın münasibətdə imiş. Meyit üzərində, eynən Berezovskinin cəsədindəki kimi, zorakılıq izləri əsla mövcud deyil. İşdə qəliz tapmaca var - zərərçəkən şəffaf kapron çantanın içinə lüm-lüt soyunaraq özü girib. Çantanın zəncirini məhz özü içəridən çəkib bağlayıb.

Deyilənə görə, iyun-iyul aylarında Haret Uilyamsın mənzilinə Aralıq dənizi sakinlərinə bənzər bir cütlük girib-çıxırmış. İstintaqçılar cütlüyün foto-robotunu hazırlayıb, lazımi ünvanlara göndərsələr də bir müsbət nəticə əldə edə bilməyiblər. Mənzildə beş-on min funt sterlinqlik qadın pal-paltarı, ənnik-kirşan, kosmetika nümunələri aşkarlayan müstəntiqlər əvvəlcə elə biliblər bəs guya 31 yaşlı Haret transseksual olub. Sonra kələfin ucu tapılıb. Mərhumun sevgilisi deyib ki, bəs bu paltarlar Haretinçün kiçikdi. Əyninə ola bilməz.

Sual verirəm əhatəmdəkilərə - Londona kimlər şoppinqə gəlib bir günə 20-25 min dollarlıq pul xərcləyərək min cür zir-zibil alır? Sonra aldıqlarını saxlamağa yer axtarır özünə?

Cavab verirəm sualıma: əlbəttə MDB pulluları.

Haret Uilyams, MDB ölkələri olqarxlarının maliyyə transferlərini güdən xüsusi Mİ-6 agenti, "Aralıq dənizi sakinlərini xatırladan" bu cütlükləri aldadıb güdə də bilərdi, məncə. Öz mənzilini bu cütlüyə etibar edib, deyə bilərdi, bəs guya bura əmniyyətli yeridi. "Əşyalarınızı, paltarlarınızı həlelik yığın Londonun Pimliko məhəlləsindəki mənzilimə. Sonra gəlib götürərsiz" - deyib, bu cür şoppinq həvəskarlarının, MDB oliqarxlarının ailə üzvləri ilə yaxın, isti münasibətlər yarada bilərdi ki, lap axırda...

Yox...bax bu "lap axırda" variantı, ssenarisi Haret üçün ölümcül nəticələnir. Onu məcbur edirlər lüm-lüt, çırıl-çılpaq soyunaraq şəffaf poletilen çanta içinə girib səsini çıxarmasın. Əməliyyat zamanı xüsusi psixo-texnologiyalardan, dərmanlardan istifadə faktı istisna deyildir. Çanta hamam otağında aşkarlansa da, orda Harret Uilyamsa məxsus barmaq izləri yoxdu. Demək, rəhmətliyi bir başqa yerdə çantaya yerləşdirib gətirib vanna otağına atıblar.



Postsovet oliqarxlarının maliyyə transferlərinə müdaxilə haqqı kimsədə yoxdur. O cümlədən Britaniyanın 007 agentlərinə də bu icazə verilmir. Boris Berezovskinin ölümü də oxşar bağlı, tam qapalı, qapısı içəridən bağlanmış otaqda baş verib.

Hadisə çoxlarını, hətta MOSSAD-ı da maraqlandırıb. Dünyanın ən məşhur kriminalistləri, patoloqanatomları Haret Uilyamsın qətlini açmaq naminə sıraya düzülüblər. Əfsus, bu tapmacada indiyədək hələ ki müsbət irəliləyiş yoxdu.

***

Bayaq yuxarıda dediyim kimi, Boris Berezovskinin izahsız ölüm səhnəsi də oxşar tam qapalı ərazidə baş tutub. Bu əraziyə quş quşluğu ilə girə bilmədiyi halda killer, həəə... killer, bu qapalı otağa icazəsiz sızmağı necəsə bacarıb.

Koroner - Britaniyada müstəqil tədqiqatçı belə adlanır, - Piter Bedford, qəzet manşetlərində gedən "Berezovski intiharını özü səhnələşdirib? O sağdı? Hələ ki yerini bildirmir?" başlıqlarını kökündən inkar edib. Deyib ki, mərhumun barmaq izləri Berezovski ilə eynidi, vəssalam. İntihar aləti - ağ boyun şərfi, məhkəmə-tibb eksperti Con Pokokun dediyinə görə, həddən artıq nazikdi, incədi. İntihar alətinə çevrilib Berezovskinin fiziki çəkisinə dözə bilməz.

Daha bir vacib cəhət. İntiharın baş verdiyi tam qapalı vanna otağında aşkarlanmış yad barmaq izinin kimə məxsusluğu indiyədək aydınlaşdırılmayıb. Ölümündən azca əvvəl İsrailə təyyarə bileti almış, bəribaşdan hotel nömrəsi kirayələmiş Berezovski, hamı bilir, psixi cəhətdən çox sağlam adamdı. İntihar-filan edəcək dəlisov insanı qətiyyən xatırlatmırdı. "İsrail səfəri, hotel bronu" məlumatlarını, mərhumun yaxın arxadaşı, biznesmen Mixail Çernı da sanballı "The Financial Times" qəzetinə verdiyi ekskluziv müsahibəsində təsdiqləyib. Səfərin bu detallarını, Berezovskinin bir başqa arxadaşı Nikolay Qluşkov da təkrarlayıb deyə, intihar versiyası bir o qədər inandırıcı görünmür indi.

Hadisədə bütün konspiroloji versiyalara yaşıl işıq yandıran bir başqa sirr də mövcuddur, biləsiz. 67 yaşlı Berezovskinin cansız cəsədi 23 mart 2013-cü ildə, London ətrafındakı Askot malikanəsində aşkarlansa da, dövrü mətbuata onun ölüm xəbəri bir-iki gün gecikmə ilə ötürülüb. Niyə? Bax bu, çox...çox maraqlıdı hamı üçün.

Görünür, Britaniya kriminalistləri, xüsusi xidmət əməkdaşları öz agentlərinin ölüm səbəbini, mənbəyini tapa bilməyiblər əvvəlcə. Bir-iki gün tərəddüd hissi keçirib sonra...bəli sonra, dövrü mətbuata Berezovskinin öldüyü faktını ötürməyə məcbur qalıblar.

Ölümün səbəbi isə elə indi də müəmmalı olaraq qalır.

**Sözü verək Berezovskinin cangüdəni, MOSSAD zabiti Avi Navama:**

"Malikanəyə girib içəri daxil oldum. Vanna otağının qapısı arxadan bağlı olsa da, içəridən su çırnağının səsi gəlmirdi. Anında təhlükə hiss edib polisə zəng açdım. Tələsik təcili yardım çağırdım. Mərhumun mətbuat katibi Maykl Kotlik gəlib dedi bəs qapını qırmaq lazımdı. Neynək. Qıpını qırıb içəri girincə gördüyümüz səhnə bizi dəhşətə gətirdi. Şərf qırılmışdı. Bir ucu qarmaqdan asılıydı, digəri mərhumun boğazına kip dolanıb sarılmışdı"

***

Qayıdaq hər iki qətl hadisəsindəki oxşar cəhətlərə. Sabiq KQB agenti Litvenenkonun ölümünü də gəlin bu müəmmalı silsiləyə daxil edək. Hər üç qətl hadisəsində bir növ "orijinallıq" var. Uilyams Haret, Berezovski, Litvenonkonu qətlə yetirən qara gölgə, məncə, çox...peşəkar, orijinal, təkrarsız görüb öz işini. Xüsusi, yaddaqalan orijinal üsulla qətlə yetirib öz qurbanlarını. Öz xüsusi işarələrini, dəst-xəttini qoyub cinayət yerlərində. Kriminalistlərə xəbər ötürüb bəs baxın haaaa...mən elə belə, avara, təsadüfi killerlərdən deyiləm. Peşəkaram. Sifarişlə hərəkət edib ən qapalı ərazilərdə, otaqlarda da gizlənən öz hədəflərimi tapıb mütləq qətlə yetirəcəm. Məndən gizlənmək əbəsdi. Gülməlidi. Əvvəl-axır, siyahımdakıların hamısını qətlə yetirəcəm. Növbəti qurbanımı gözləyin.

***

Dünyada indi qızğın, amansız, qanlı müharibələr gedir. Ancaq bu, odlu müharibə deyil, kəşfiyyat müharibələridir. Qurbanların, müəmmalı qətllərin sayı günü-gündən artır.

Kimsə, bilmirik kim, ən qapalı, bağlı ərazilərə girib orda öz qurbanlarının sayını artırır. Deyilənə görə, bunu güvə kimi hərəkət edən bir peşəkar killer dəstəsi həyata keçirə bilər ancaq.

Növbədə indi kimdi?

Britaniya mətbuatı həmin sualı indi öz manşetlərinə çıxarır.

O güvəni axtarıb tapın.

**P.S.** *Azərbaycanda da artıq iki-üç MTN zabiti müəmmalı şəkildə öz dünyasını dəyişib. Müəmmalı qətllər mövzusu, görünür, Azərbaycanı da öz əhatə dairəsinə alıb indi.*

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 21 (6635) 31 yanvar 2017



# Meksika civarında Amerika divarı

Xalid KAZIMLI

**ABŞ-ın yeni prezidenti Donald Trampın Meksika ilə sərhəddə hündür divar hördürmək istəməsi bəzi ölkələrdə müsbət, bir çox ölkələrdə isə mənfi planda qarşılanıb.**

İsrail dövləti bir dövlətin özünü hündür divarlarla qorumaq təşəbbüsünü alqışlayır, İran isə bu plana qarşı çıxır və vaxtilə Almaniyanın paytaxtını ikiyə bölmüş "Berlin divarı"nı (xüsusilə də divarın aqibətini) xatırladır.

Bu təşəbbüsü dəstəkləyən və ona qarşı olan hər tərəfin öz motivi, öz arqumenti var.

İsrail ona görə Meksika ilə sərhəddə hündür divarlar qaldırılmasını dəstəkləyir ki, özü də Fələstinin yaşayış məntəqələri ilə yəhudilərin yaşayış məntəqələri arasında hündür divar çəkib və çəkməkdədir

O vaxt İsrail bu addımı atarkən dünyanın bir çox dövlətləri tərəfindən qınanır, bunun insan haqlarına zidd bir əməl olduğu bildirilirdi. Yəhudi dövləti ittihamlara cavab olaraq bildirirdi ki, bunu vətəndaşlarını fələstinli terrorçuların hücumundan qorumaq üçün edir.

Hər halda heç bir dövlət İsraili Fələstinlə öz arasında uca divarlar ucaltmaq planından geri durmağa vadar edə bilmədi. Hamı bu faktla barışdı.

İndi İsrail ona görə Meksika ilə sərhədini hündür divarlar vasitəsilə qorumağa çalışan ABŞ-a qahmar çıxır ki, öz presedentinin yayıldığını və özünün prinsipcə haqlı çıxdığını müşahidə edir.

İran isə sırf İsrailin acığına, onun Fələstinlə öz arasında divar hörməsinə qarşı çıxdığına görə indi də ABŞ-ın "divar siyasəti"nə qarşı olduğunu bildirir.

Ancaq İran prezidentinin "Berlin divarı"nı misal gətirməsi, müqayisə aparması qüsurludur. Çünki "Berlin divarı" bir millətin parçalanmış iki dövləti, bir paytaxtın ikiyə bölünmüş hissələri arasında çəkilmişdi. Bu divar alman xalqının iradəsi ilə çəkilməmişdi, onu almanlara ruslar sırımış, divarın təhlükəsizlik səciyyəsi daşıdığını iddia edərək, onu şərqi Almaniyaya zorla qəbul etdirmişdi.

O divarın müvəqqəti olacağı, ilk fürsətdə, SSRİ-nin zəifləyəcəyi gün yıxılacağı bəlli idi. Elə də oldu. 1989-cu ildə, SSRİ-nin süqutundan iki il öncə "Berlin divarı" dağıdıldı və onun hər daşı, hər beton qırığı suvenirə çevrildi.

Meksika ilə sərhədə çəkiləsi divar isə "Berlin divarı" ilə eyniyyət təşkil etmir. Düzdür, sərhədin hər iki tayında eyni etnik kökənə malik milyonlarla insan yaşayır, amma onlar iki yüz ildən çoxdur ki, iki ayrı-ayrı dövlətin - ABŞ və Meksikanın vətəndaşlarıdır.

"Meksika divarı" bir millətin ikiyə bölünən hissələrinin bir-birindən təcrid edilməsi demək deyil, ABŞ-ın cənub ştatlarında yaşayan ispandillilərlə Meksikada yaşayanların arasında sıx əlaqələr və intensiv gediş-gəliş var.

Prezident Tramp Meksika sərhədində divar tikilməsini ona görə vacib sayır ki, cənubdan gələn milyonlarla qanunsuz miqrantın, narkotik maddə qaçaqçısının qarşısını alsın.

Hər ay yüzlərlə belə fakt qeyd alınır. Hətta hazırda divar olmadığı halda minlərlə qanunsuz miqrant və narkotik qaçaqçısı sərhəd xətti boyunca yerlatı tunellər qazaraq Meksikadan ABŞ-a adlamaq istəyirlər.

Görünür, bu, artıq ABŞ-ın dövlət təhlükəsizliyini təhdid edəcək qədər ciddi məsələdir.

Gerçəkdən də bir dövlət öz sərhədlərini qorumağa, xaricdən qanunsuz yolla ölkəyə sızmağa çalışanların qarşısını almağa məcburdur və buna borcludur. Əgər bir dövlət bunu tikanlı məftillərlə edə bilmirsə və bu üsul effektsiz qalırsa, deməli, o, başqa çarələr barədə düşünəcək.

Hündür sərhəd divarları o vasitələrdən biridir.

Hazırda Meksika narkokartellərin sayına görə dünya liderdir və burada mafioz birləşmələr arasında sözün birbaşa mənasında müharibə gedir. Bu narkokartellər ABŞ ştatlarını ən əlverişli bazar sayır, bu dövlətə soxularaq milyardlarla dollar qazanmağa çalışır. Nəticədə amerikalı gənclər kütləvi şəkildə narkotik maddə asılılığına cəlb edilir.

Bu təhlükənin qarşısını almaq üçün tikilən divarların insan haqlarına heç bir dəxli yoxdur. Ölkədən-ölkəyə leqal yolla keçmək istəyənlər üçün sərhəd-gömrük məntəqələri 7\24 işləyir.

O divarlardan hər ölkəyə, bizə də lazımdır. Heç qədim dövrlərdə Çin səddi də əbəs yerə tikilməmişdi.

---

**"Yanvarın 29-da sosial şəbəkələrdə və bəzi yerli elektron informasiya resurslarında Silahlı Qüvvələrin hərbi qulluqçusu əsgər Fəttayev Xanəli Qəribəli oğlunun düşmən tərəfindən açılan atəş nəticəsində həlak olması barədə yayılan məlumatlar həqiqətə uyğun deyil.**



# İntihar edən əsgər Xanəli Fəttayev torpağa tapşırıldı -

## Müdafiə Nazirliyi: "Azərbaycanın hərbi qulluqçusu özünəqəsd nəticəsində həlak olub"

Musavat.com xəbər verir ki, bu barədə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat yayıb.

**Nazirlikdən bildirilib ki, hərbi qulluqçu qeyri-döyüş şəraitində, özünəqəsd nəticəsində həlak olub:** "İlkin araşdırmalar göstərdi ki, intiharın xidməti fəaliyyətlə əlaqəsi aşkar edilməyib. Faktla bağlı Hərbi Prokurorluqda cinayət işi başlanılıb, araşdırma aparılır. Eyni zamanda sosial şəbəkə istifadəçilərini və elektron kütləvi informasiya vasitələrini Silahlı Qüvvələrin fəaliyyəti, xüsusilə cəbhə bölgəsində baş verən hadisələrlə bağlı dəqiqləşdirilməmiş, qeyri-rəsmi məlumatları yaymamaları barədə növbəti dəfə xəbərdar edirik".










Xatırladaq ki, dünən gecə Xanəli Fəttayevin yaxınları musavat.com - a deyiblər ki , 18 yaşlı əsgər 4 ay öncə hərbi xidmətə yollanıb. Xanəli Fəttayevin ölüm xəbəri 29 yanvar saat 12:00-da ailəsinə verilib. Onun həmin gün səhər saat 6:00 radələrində şəhid olduğu deyilib. Ailədən bildirilib ki, gecə saatlarında övladlarının cənazəsi ailəyə təhvil veriləcək və hadisə haqqında ətraflı məlumat təqdim olunacaq.

Yanvarın 29-da ermənilərlə həmsərhəd olan Tovuz rayonunun Əlibəyli kəndində təmas xəttində intihar edən əsgər Xanəli Fəttayevin cənazəsi gecə saatlarında ailəsinə verilib. O, yanvarın 30-da yaşadığı Binə qəsəbəsi "Südçülük Savxozu" adlı ərazidəki qəbiristanlıqda torpağa tapşırılıb.

Musavat.com-un müxbirinin hadisə yerindən verdiyi xəbərə görə, əsgərin dəfni zamanı izdiham yaşanıb. Müdafiə Nazirliyinin nümayəndələri, əsgərin xidmət etdiyi hərbi hissənin əsgər və zabitləri iştirak ediblər.

**Əsgər Xanəli Fəttayevin atası Qəribəli Fəttayev "Yeni Müsavat"a danışaraq, oğlunun intihar etməsi ilə bağı yayılan xəbərlərə də münasibət bildirdi:** "Oğlum vətən uğrunda şəhid olub. İntihar etməyib. Özüm yarasına baxdım, qabaqdan ürəyinin aşağı hissəsindən güllə yarası alıb. Ekspertiza da düşmən gülləsi ilə şəhid olduğunu təsdiqlədi. Vətən sağ olsun".

❑ MƏĞRUR

---

# "Ermənilər bilir ki, Azərbaycan Cocuq Mərcanlı ilə kifayətlənməyəcək"

## Politoloq: "Sərkisyan çalışacaq ki, Tet-Petrosyanın şüarına qarşı saxta vətənpərvər ritorikasını daha da gücləndirsin"

**"Ermənistan prezidenti Serj Sərkisyanın problemləri getdikcə artır. Bir tərəfdən apreldə parlament seçkisi keçiriləcək və müxalifət getdikcə sıralarını genişləndirir. İkinci tərəfdən, iqtisadiyyat və sosial həyatda gərginlik artır, resurslar isə yoxdur ki, müsbətə doğru nəyisə dəyişəsən".**



**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bu fikirləri Ermənistan prezidentinin son çıxışını və düşmən ölkədəki hazırkı durumu "Yeni Müsavat"a şərh edərkən söylədi. Onun sözlərinə görə, Ermənistan ordusunda artan itkilər cəmiyyətdə hakimiyyətə qarşı narazılığı gücləndirir: "Ancaq Ermənistan prezidentini daha çox cəbhə bölgəsindəki vəziyyət narahat edir. Odur ki, Sərkisyan Ermənistan cəmiyyətinin narahatlığını azaltmağa çalışır. Buna misal olaraq Sərkisyanın Ermənistan ordusunun yaranmasının 25 illiyi ilə bağlı nitqini göstərmək olar. Sərkisyanın son çıxışında iki cümlə diqqəti cəlb edir. Sərkisyan birinci cümləsində deyib ki, "yeni müharibə Qarabağ probleminin həllinə kömək etməyəcək, əksinə, vəziyyəti daha da çıxılmaz duruma sürükləyəcək". Sərkisyanın ikinci cümləsi isə belədir: "Dağlıq Qarabağ ətrafındakı təhlükəsizlik zolağı bizim üçün vacibdir. Biz növbəti və uzun müharibəni yenə mətbəximizin içində aparmaq istəmirik". Birinci cümlə əslində onun etirafıdır ki, müharibə riski yüksəkdir və Sərkisyan erməni ictimaiyyətini yeni müharibəyə hazırlayır. Yeni Ermənistan prezidenti Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaldılmasıyla yarana biləcək sülhün yerinə ac-yalavac xalqını ölümün pəncəsinə atacağının anonsunu verir. İkinci cümlənin açması isə odur ki, adını "təhlükəsizlik zolağı" qoyduğu Dağlıq Qarabağ ətrafındakı rayonlarımızı hələ uzun müddət işğal altında saxlamaq istəyir ki, bunun əvəzinə Azərbaycandan Dağlıq Qarabağın statusunu qopara bilsin".

**Ancaq E.Şahinoğlunun sözlərinə görə, S.Sərkisyan bunun mümkün olmadığını özü də anlayır:** "Ona görə də bizim Sərkisyanın "mətbəxinin", yəni Xankəndinin ətrafını boşaltmaqdan başqa alternativimiz qalmayıb. Bu il ərzində işğalçıya qarşı təzyiqi artırmalıyıq. Məsələn, Cocuq Mərcanlıya qayıdışımız Ermənistan hakimiyyətini narahat etməyə bilməz. Çünki özləri də bilirlər ki, Azərbaycan Cocuq Mərcanlıyla kifayətlənən deyil".

**Politoloq Elçin Mirzəbəyli isə hesab edir ki, Sərkisyan hər zaman olduğu kimi, yeni heç nə demədi:** "Ənənəvi ritorika və boşboğazlıq - Serjin son sərsəmləməsinə bundan başqa ad vermək mümkün deyil. Hiss olunurdu ki, çıxış daha çox Azərbaycanın atdığı addımlara cavab xarakteri daşıyır. Sərkisyanın münaqişənin hərbi yolla həllinin olmadığını tez-tez vurğulaması Ermənistan cəmiyyətindəki müharibə xofunun aradan qaldırılmasına xidmət edir. Seçkiyədək cəbhə xəttində gərginliyin davam edəcəyi şübhəsizdir. Sərkisyan çalışacaq ki, Levon Tet-Petrosyanın "Sülh və yaxın qonşuluq" şüarına qarşı saxta vətənpərvər ritorikasını daha da gücləndirsin".

❑ Cavid TURAN

Yeni MÜSAVAT
N 21 (6635) 31 yanvar 2017

**"Bizim siyasətimizin məqsədi ölkəmizi gücləndirməkdir, müstəqilliyimizi möhkəmləndirməkdir və dayanıqlı inkişafa nail olmaqdır. Əlbəttə, məqsədimiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın. Yəni biz bütün bu işləri onun üçün edirik ki, xalqımız daha da yaxşı yaşasın".**



# Prezidentdən məmurlara sərt xəbərdarlıq

## İlham Əliyev: "Məmur yekəxanalıq etməməli, qanunsuz tələb irəli sürməməli, rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır"

AZƏRTAC xəbər verir ki, bu fikirləri prezident İlham Əliyev yanvarın 30-da "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransda söyləyib.

Dövlət başçısı vurğulayıb ki, sosial məsələlərin həlli bütün proqramlarda nəzərdə tutulub, həm maaşların, pensiyaların, sosial müavinətlərin, ünvanlı sosial yardımın artırılması və eyni zamanda sosial infrastrukturun yaradılması qarşımıza məqsəd kimi qoyulub.

**Konfransda çıxış edən prezident İlham Əliyev məmurlara növbəti dəfə mesajlar ünvanlayıb:** "İnsanların yaxşı yaşaması təkcə maddi tərəflə ölçülmür. Burada, əlbəttə ki, məmur-vətəndaş münasibətləri xüsusi yer tutur. Mən dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi demişəm, bu gün də deyirəm. Hər kəs bilsin, eşitsin və nəticə çıxarsın: məmurlar xalq üçün yaşayırlar, əksinə deyil. Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət göstərməlidir, köməklik göstərməlidir, yekəxanalıq etməməlidir, hansısa qanunsuz tələb irəli sürməməlidir, özünü təvazökar aparmalıdır - özü də, ailə üzvləri də, nümunə olmalıdır, rüşvətxorluqla məşğul olmamalıdır, soyğunçuluqla məşğul olmamalıdır. Məmur bax belə, dediyim kimi olmalıdır. Mən hər bir dövlət məmurunu təyin edəndə və ya icra başçısını başqa vəzifəyə qəbul edəndə də göstərişlər verirəm ki, get, insanlara qulluq elə, xidmət elə, dövlətə xidmət elə, təmiz işlə. Amma əfsuslar olsun ki, bəziləri nəticə çıxarmırlar və onların da cəzası verilir və veriləcəkdir. Biz bütün bu işləri görürük ki, Azərbaycanda inkişaf hərtərəfli və sürətli olsun, xoşagəlməz hallara son qoyulmalıdır. Biz "ASAN xidmət"i yaratdıq, hələ bir şikayət eşitməmişəm. Bu, ictimai xidmətlər sahəsində yenilikdir. Bu, həm bizim iradəmizi göstərir, həm də bunu etməyin mümkünlüyünü göstərir. Hər şey məmurlardan asılıdır. Məmurlar işlərində nöqsana yol verərlərsə, cəzalandırılacaqlar".

**Prezident bildirib ki, Azərbaycan özünü əhənglə 90 faiz, gipslə 200 faiz, mərmər-travertin ilə 46 faiz, alçıpan ilə 100 faiz, armatur ilə 72 faiz, alüminium ilə 231 faiz təmin edir:** "Keçən il tikinti malları sektoruna qoyulan investisiyalar azaldı, ancaq bu, müvəqqəti haldır. Mənzil İnşaat Agentliyi xətti ilə inşa olunacaq binalar, Bakıda köhnə binaların yerində yeni binaların tikilməsi layihələri bu sahəni canlandıracaq".

**Prezident qeyd edib ki, xalçaçılıq inkişaf etməlidir:** "Azərbaycan turizm üçün çox cəlbedici ölkədir. Bakıda dünyanın aparıcı hotel şəbəkələrinin mehmanxanaları var. Bizim qonaqpərvər insanlarımız, ölkədə sabitlik, təhlükəsizlik turistləri cəlb edir. Vizalar da sadələşdirilib. Azərbaycanda güclü turizm industriyası yaradılmalıdır".

**Dövlət başçısı Quba və Mingəçevir şəhərlərində "ASAN xidmət" mərkəzləri açılacağını söyləyib:** "Bu il həm də 42 min ictimai iş yerləri açılacaq. Biz bütün bu işləri görərkən bir neçə məqsəd güdürük. Biz kənd təsərrüfatı ixracını iki dəfə artıra bilərik. Beləliklə, ölkəyə daha çox valyuta gələcək, iş yerləri artacaq, neftdən asılılıq azalacaq. Mən deyirəm ki, biz postneft dövründə yaşayırıq. Ancaq bu, o demək deyil ki, neft gəlirləri olmayacaq. Biz onillərlə neft gəlirlərindən xalqımızın rifahı üçün istifadə edəcəyik".

**"Bütün obyektiv çətinliklərə baxmayaraq, 2016-cı ildə iqtisadiyyat inkişaf edib" - deyə prezident qeyd edib:** "Ötən il qeyri-neft sərmayəsi 5 faiz artıb. Apardığımız dərin islahatlar nəticəsində bu inkişafı təmin edə bilmişik. Bu gün də dünyada davam edən iqtisadi və maliyyə böhranı bizim işimizə təsir göstərdi. Ancaq digər ölkələrlə müqayisədə Azərbaycan minimum itkilərlə bu prosesdən çıxıb. Keçən il yüz mindən çox iş yeri yaradılıb. Biz Dövlət Neft Fondunun valyuta ehtiyatlarını qoruya bilmişik, bu da mühüm hadisədir. Çünki neftlə zəngin ölkələr valyuta ehtiyatlarının əhəmiyyətli hissəsini xərcləyib".

**Prezident bildirib ki, xarici kredit almağa o qədər də meyl göstərməməliyik, çünki xarici borcun artması yaxşı hal deyil:** "Xarici borc 20 faiz həcmindədir. Əslində bu, manatın devalvasiyası ilə bağlıdır. 20 faiz aşağı göstəricidir. Xarici borcu çox ehtiyatla almalıyıq. Yalnız strateji əhəmiyyət daşıyan layihələrlə bağlı borc ala bilərik".

**Dövlət başçısı bildirib ki, maneələr törətmək istəyənlər olsa da, Azərbaycan strateji məqsədlərinə nail olub:** "Hazırda Cənub Qaz Dəhlizi layihəsi həyata keçirilir. Əgər Azərbaycan liderlik keyfiyyətini ortaya qoymasaydı, Cənub Qaz Dəhlizi layihəsi də reallaşmazdı... Bu layihə uzunmüddətli məqsədlərə xidmət edir. Azərbaycan daha önəm daşıyan ölkə olacaq".

**Dövlət başçısı qeyd edib ki, Azərbaycan neftdən çox ağıllı və səmərəli istifadə edən ölkədir:** "Bəzi təhlilçilər deyirdilər ki, neft Azərbaycana xoşbəxtlik deyil, bədbəxtlik gətirəcək. Ancaq biz möhkəm dövlət qurmuşuq, 25 ildir ki, müstəqil yaşayırıq. Gələcəkdə daha böyük işlər görüləcək. Bu işlərin mərkəzində xalq dayanır. Xalq dəstək verməsə idi, bu işlər görülməzdi. Bu bizi ruhlandırır. Həm də biz bu işləri o qədər də asan olmayan şəraitdə etmişik. Bilirsiniz ki, bizə qarşı mütəmadi qarayaxma, təhqir kampaniyaları aparılır. Biz bilirik ki, bunların arxasında kimlər dayanır, məqsədləri nədir. Bizə qarşı çirkin siyasi kampaniyalar təşkil edənlər də siyasi səhnədən kənarlaşdırılıblar. Dünya da görür ki, Azərbaycan xalqı qürurlu xalqdır, imkan verə bilməz ki, kimsə bizə diqtə etsin".

**Prezident qeyd edib ki, Azərbaycanda güclü milli biznes sinfi yaranıb:** "... Bizim məqsədimiz müstəqilliyimizi gücləndirmək və dayanıqlı inkişafa nail olmaqdır. Məqsədimiz odur ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın. Pensiya, müavinət və maaşların artırılması bu məqsədə xidmət edir".

**Dövlət başçısı qeyd edib ki, Azərbaycan artıq kosmik sənayeyə malikdir:** "İki peykimiz var. Kosmik sənaye düzgün qurularsa, böyük gəlir mənbəyidir. Peyklərin yaradılmasına qoyulan vəsait artıqlaması ilə geri qayıdacaq".

**"Son illər məcburi köçkünlər üçün 100-ə yaxın qəsəbə tikilib, 5 milyard manatdan çox vəsait ayrılıb. Bu il də yeni binalar tikilməlidir"** - deyə, prezident bildirib: "Qəsəbələrdə fərdi evlərin tikintisi də həyata keçirilməlidir. Çünki o qəsəbələrdə artıq infrastruktur var. Tapşırıq verilib ki, bu il yataqxanalardakı məcburi köçkünlərin köçürülməsinə başlanılsın. Bu il və qarşıdakı illərdə vəsait ayrılacaq ki, yataqxanalardakı məcburi köçkünlərin mənzil şəraiti yaxşılaşdırılsın. Yaxın bir ay ərzində vəsait ayrılacaq. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpasına başlanılıb. Biz vətəndaşlarımızı işğaldan azad edilmiş kəndlərə qaytarırıq. Sakinlər böyük səbirsizliklə Cocuq Mərcanlıya qayıtmağı gözləyirlər. Biz qısa müddətdə bu kəndi yenidən quracağıq. Bunun böyük tarixi əhəmiyyəti var. Cocuq Mərcanlı kəndi bir neçə ay işğal altında olub, Heydər Əliyevin rəhbərliyi altında Horadiz əməliyyatında işğaldan azad edilib. Ancaq ermənilər bu müddət ərzində kəndi tamamilə dağıdıblar. Mən tapşırmışam ki, beynəlxalq təşkilatların nümayəndələrinin o kəndə səfəri üçün müraciət edilsin, görsünlər ki, özlərini mədəni xalq kimi təqdim edənlər hansı vəhşilikləri törədiblər. Orada foto, videogörüntülər çəkilməli, lazımi işlər görülməlidir ki, bu vəhşiliklər sənədləşdirilsin. O kənddə infrastruktur bərpa olunmalı, tibb məntəqəsi, uşaq bağçası tikilməlidir. İlk mərhələdə 50 ev bərpa olunacaq, gələcəkdə 100 və daha çox ev bərpa ediləcək. Kənddə iş yerləri də açılmalıdır. Biz insanlarımızı doğma torpaqlarına qaytaracağıq".

**İqtisadi inkişafa toxunan prezident deyib ki, hazırda mal əti ilə özümüzü 95, qoyun əti ilə 99 faiz təmin edirik:** "Azərbaycan kərə yağı ilə 76 faiz özünü təmin edir, bunun 10 faizi xarici faktordur. Burada 10 faiz qablaşdırma ilə bağlıdır. Qablaşdırma elə məsələ deyil ki, biz bunu həll edə bilməyək. Buğda ilə özümüzü 53 faiz təmin edirik, burada 23 faiz xarici faktordur. Arpa ilə 102 faiz, qarğıdalı ilə 71 faiz, soya ilə cəmi 4 faiz, meyvə və giləmeyvə ilə 102 faiz özümüzü təmin edirik. Ancaq elə növlər var ki, özümüzü təmin edə bilmirik. Meyvə və giləmeyvə vacib ixrac məhsulumuzdur".

**Prezident Azərbaycanın bütün növ tərəvəzlə 96 faiz özünü təmin etdiyini söyləyib:** "Kartofla təminat 86 faizdir, bu, bir az aşağı düşüb. Şəkərlə özümüzü 115 faiz təmin edirik. Ancaq bunun tərkibində 73 faiz xarici faktor var. Şəkər çuğundurunun əkilməsi, becərilməsi, şəkər hazırlanması üzrə Dövlət Proqramı hazırlanıb. Bal ilə 97 faiz təmin edirik".

**Dövlət başçısı qeyd edib ki, Azərbaycan müstəqillik dövründə ərzaq təhlükəsizliyini tam təmin etməyə çalışmalıdır:** "Yeni dövriyyəyə cəlb edilən torpaqlar hesabına idxaldan asılılığa son qoya və ixracın artmasına nail ola bilərik. Keçən il 90 min ton pambıq tədarük etmişik. Bu il isə 200 min ton pambıq istehsalı gözləyirik. Bu sahə Mingəçevirdə yaradılacaq sənaye parkının təminatı ilə bağlıdır. Mingəçevirdə təməlini qoyduğumuz iplik və digər sahələrlə bağlı zavodlar bu ilin sonlarında istifadəyə verilməlidir. Yeri gəlmişkən, hazırda 37 rayonda insanlar baramaçılıqla məşğuldurlar. 2019-cu ildə 1300 ton barama istehsalı planlaşdırılır".

**Prezident İlham Əliyev fındıqçılığın inkişafının xüsusi diqqət mərkəzində olduğunu nəzərə çatdırıb:** "Hazırda 3035 min hektarda fındıq sahələri var, biz bunu 80 min hektara çatdırmalıyıq. 30-40 min hektar ərazidə isə şəkər çuğunduru əkilməsi nəzərdə tutulub. Bu şəkər çuğunduru şəkər zavoduna göndəriləcək və şəkər zavodunun xaricdən valyuta ilə xammal alması minimuma enəcək. Bakı ətrafında və Abşeronda badam, zeytun bağları salınmalıdır. Tütün istehsalı Azərbaycanda 10 min tona çatmalıdır. Üzümçülük və şərabçılıqla bağlı tədbirlər də nəzərdə tutulur. Biz indiki səviyyə ilə razılaşa bilmərik. Bu sahələr üzrə assosiasiyalar keçən il yaradılıb. Şərabçılıq Assosiasiyası xarici bazarlara çıxışlar tapmalıdır. Hazırda cəmi 3 milyon dollar həcmində şərab məhsulları ixrac olunur. Bu göstərici 10 dəfə, 20 dəfə, daha çox artırılmalıdır. Biz dost, qonşu ölkələrlə də danışmışıq ki, Azərbaycan şərabına yer ayrılsın. Biz ildə 50-60 milyon dollar soya alınmasına xərcləyirik. Biz soya sahələrini artırsaq, bunu uğurla ixrac edə bilərik".

**Dövlət başçısı 50 min baş cins mal-qara gətirilərsə, Azərbaycanda süd məhsullarına tələbatın tam təmin olunacağını açıqlayıb:** "Biz səmərəsiz örüş sahələrini əkinə cəlb etməliyik. Ancaq bu sahədə də planlı iş görülməlidir. Yəni bir sahəni inkişaf etdirməklə, digər sahənin inkişafına ziyan vurulmamalıdır. Burada düşünülmüş siyasət aparılmalıdır. Yeri gəlmişkən, yun tədarükü ilə bağlı cəmi bir sahə var. Bu il ən azı 10 yeni yun tədarükü sahəsi yaradılmalıdır".

**"Bir sahəni inkişaf etdirməklə digər sahənin inkişafına ziyan vurulmamalıdır; düşünülmüş siyasət aparılmalıdır"**

**Prezident çayçılığın, arıçılığın inkişafının da diqqət mərkəzində olduğunu söyləyib.**

**Dövlət başçısının sözlərinə görə, taxılçılıq az gəlir gətirən sahə olsa da, strateji sahədir. O deyib ki, hazırda Azərbaycan 53 faiz özünü taxılla təmin edir və bu göstərici artırılmalıdır:** "İndi 250-300 milyon dollar xaricdən taxıl alınmasına sərf edilir".

**Prezident bildirib ki, Azərbaycanda gübrə zavodu fəaliyyətə başlayacaq:** "Pestisidlərin də ölkə daxilində istehsalına nail olmalıyıq".

**O deyib ki, "Azərişıq" tərəfindən bütün bölgələri dayanıqlı enerji ilə təmin etmək üçün əlavə işlər görülməli, yeni yarımstansiyalar, dayaqlar quraşdırılmalıdır:** "Bu il "Azəriqaz" ən azı 80 kəndə qaz xətləri çəkməlidir. Bu il qazla təminat 94 faizə çatdırılmalıdır".

**Prezident qeyd edib ki, "Azəravtoyol" 40 kənd yolu layihəsini icra etməlidir:** "Bu, həm insanlara rahatlıq verəcək, həm də iqtisadi inkişafa mühüm təsiri olacaq".

**Dövlət başçısının sözlərinə görə, bu il Ələt Beynəlxalq Dəniz Limanı layihəsinin birinci mərhələsi başa çatmalıdır.**

**Prezident "Azərsu"ya da tapşırıqlar verib:** "Bakının fasiləsiz su təminatı 80 faizə çatıb, ölkə üzrə bu göstərici 65 faizdir. Bu göstərici daha da artmalıdır. Biz bu proqrama başlayanda fasiləsiz su təminatı 25 faiz idi. Bu il minimum 50 kənddə sutəmizləyici qurğular quraşdırılmalıdır. Digər tərəfdən, meliorasiya sahəsində böyük işlər görülməlidir".

**Dövlət başçısı görüləcək işlərə güclü dövlət və ictimai nəzarətin həyata keçirilməli olduğunu vurğulayıb.**



# Rəsulzadənin birləşdirə bilmədiyi müxalifət

## Öndərin doğum günü Novxanıda ayrı-ayrılıqda qeyd ediləcək

**Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadənin doğum günündə müxalifət ənənəvi yürüşünü keçirəcək. Yanvarın 31-də Bakının Novxanı qəsəbəsində, Rəsulzadənin abidəsi önündə tədbir keçiriləcək. Əksər müxalifət partiyalarının rəhbərləri və təmsilçiləri gün ərzində abidəni, həmçinin Rəsulzadənin yaxınlarının məzarını ziyarət edəcəklər. Bu ziyarətlərdəki detal hər dəfə cəmiyyətdə müzakirə edilir, suallara, narazılığa səbəb olur. Müxalifət dahi liderin abidəsi önünə də birləşərək gedə bilmir. Yeni Rəsulzadə dəyərləri də müxalifəti birləşdirə bilmir. Əksinə, müxalifətin parçalanması, ayrılığı bu cür günlərdə daha qabarıq şəkildə görünür. Ayrılıqda yürüşün səbəbini bir neçə müxalifət təmsilçisi musavat.com-a açıqlayıb.**

Müsavat Partiyasının Mərkəzi İcra Aparatının sədri Gülağa Aslanlı bildirib ki, partiya təmsilçiləri saat 12.00-da Novxanıda tədbir keçirəcəklər, abidə ziyarət ediləcək və partiya rəhbərləri çıxışlar edəcəklər: "Biz qabaqcadan elan etmişik ki, tədbir saat 12-də keçiriləcək və bizə qoşulmaq istəsələr, gələ bilərlər. Biz saat 12-də tədbiri başlayacağıq". G.Aslanlı müxalifətin birgə tədbir keçirməməsini bu cür cavablandırıb: "Məhəmməd Əmin Rəsulzadənin yaratdığı ən böyük əsər Müsavat Partiyasıdır. Bu məsələdə Müsavat Partiyası hansı qərarı verirsə, digərləri də Müsavat Partiyasını nəzərə almalı, ona uyğunlaşmalıdır. Biz bunu kiminləsə məsləhətləşməli deyilik".

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə bildirib ki, KXCP yanvarın 31-də 15.00-da Novxanıda tədbir keçirəcək:** "Tədbirdə tək KXCP deyil, digər partiyalar da iştirak edəcəklər. AXP, ADR, ALP, VİP və digərləri, ona yaxın partiya Novxanida Rəsulzadənin abidəsini ziyarətə edəcəklər, daha sonra Novxanı kənd qəbiristanlığında uyuyan doğmalarını ziyarət edəcəklər. Bu, partiyaların sədrlərinin verdiyi qərardır, ortaq məşvərət nəticəsində qəbul edilib. Əlbəttə, Novxanıya müxalifət olaraq birlikdə getmək yaxşı olardı. Cəmiyyətin gözləntiləri var, haqlıdırlar, amma bu cür alınır. Düşünürəm ki, ölkədə proseslər elə bir vəziyyətə gətirib çıxaracaq ki, artıq hamı bir yerdə olmağa məcbur, məhkum olacaq. Zaman lazımdır yəqin".

**Ümid Partiyasının sədr müavini Taleh Əliyev isə qeyd edib ki, ayın 31-də partiyada sadəcə dəyirmi masa təşkil olunacaq:** "İşıqlı şəxsiyyətin anadan olması günü münasibətilə partiya üzvlərinin, partiya fəallarının iştirakı ilə tədbir olacaq, başqa planımız yoxdur. O da ümumi vəziyyətlə əlaqədardır, hər halda, biz də daha geniş, təmtəraqlı, respublika səviyyəsində tədbirlər keçirmək istəyərdik. Tədbirləri rayon təşkilatları ilə birgə keçirmək istəyərdik. Amma hazırda regionlarda səfərlərlə bağlı da normal şərait yaradılmır. Ona görə də tədbiri yalnız partiyanın mərkəzi qərargahında keçirməklə kifayətlənəcəyik. Sosial şəbəkə üzərindən paylaşımlar da olacaq". O xatırladıb ki, əvvəl, müxalifətin müxtəlif birlik formatlarında Novxanıdakı abidəni birgə ziyarət ediblər.

❑ Röya RƏFİYEVA

# Baş həkim 5 saylı xəstəxananın girişindəki şüardan danışdı

## Ziya Əsədov: "Yüz xəstədən biri bu şüarı anlasa, bu, böyük işdir"

**Sosial şəbəkələrdə Bakı şəhəri 5 saylı Kliniki Xəstəxananın girişində millətçiliyə aid şüarın yazılmasına aid foto yayılıb və müzakirəyə səbəb olub. Belə ki, xəstəxananın girişində "Türkün türklə ədavətə haqqı yoxdur" şüarı yazılıb.**

İstifadəçilərin bəziləri hesab edirlər ki, səhiyyə ocağında bu cür şüarların yazılması doğru deyil. Çünki bura siyasi partiya qərargahı yox, xəstəxanadır. Həmçinin qeyd olunur ki, xəstəxananın həyətinə parkomat yerləşdirilib, müayinə üçün müxtəlif məbləğlərdə pul alınır.

**Bütün bunlarla bağlı münasibət almaq üçün xəstəxananın baş həkimi Ziya Əsədovla əlaqə saxladıq. O, səslənən fikirlərə aşağıdakı kimi cavab verdi:** "Xəstəxananın girişinə yazılan bu fikirlər mənim deyil, mərhum şairimiz Bəxtiyar Vahabzadənin sözləridir. Sadəcə, mən o fikrin altına şairin imzasını qeyd etməmişəm. Onun şüarda olduğu kimi eyniadlı şeiri də var. Başa düşmürəm, burada nə var ki? Bəyəm türk də türklə ədavət edər? Xəstəxana da türklərin vətənindədir. Burada yatan, müalicə alan xəstələr də türklərdir. Yüz xəstədən biri bu şüarı anlasa, bu, böyük işdir. Özü də bu şüar xəstəxanaya indi vurulmayıb. 23 ildir ki, üzərində şüar olan bu lövhə xəstəxananın girişindədir. Bir daha qeyd edirəm ki, türkün tüklə ədavətə haqqı yoxdur. Hesab edirəm ki, bundan da gözəl söz yoxdur. Bu siyasi fikir deyil. Həmin lövhəni müstəqilliyimizin ilik illərində, 1993-cü ildə ora vurmuşam. O zaman da, indi də, lap 100 il sonra da bu cür şüarlara ehtiyacımız olacaq. Surət Hüseynov qiyam qaldıran vaxt biz bu şüarı xəstəxanaya vuranda, bunu hər kəs yüksək qarşıladı. Sonra da gördüm ki, bu şüara hamı müsbət yanaşır, ona görə də əl vurmadım və orada qaldı. İndiyə qədər də heç kim bu yazıya etiraz etməyib. Etiraz edənlər olub, onlar da türk olmayıblar. Həmin şüarın qarşı tərəfində isə millətimiz nədir, qüdrətimiz nədir, gücümüz nədədir deyə, platforma da yazmışam. Hələ yaxşı ki, bunu çəkib yaymayıblar".



Ziya Əsədov

**Z.Əsədov bildirib ki, xəstəxanada səhiyyəyə aid də kifayət qədər yazılı lövhələr var:** "Səhiyyəyə, tibbə aid də yazılar var. İndi biz misal üçün, xəstəxanaya Göygölün şəklini vura bilmərik? Bu yanaşmanı anlaya bilmədim. Mən yazmamışam ki, türkün kürdlə ədavətə haqqı yoxdur. Yazmışam ki, türklə ədavətə haqqı yoxdur də... Burada qeyri-adi heç nə yoxdur".

**Z. Əsədov xəstəxananın həyətində parkomat olması və digər iradlara da münasibət bildirib:** "Xəstəxananın qarşısındakı parkomatın mənə heç bir aidiyyəti yoxdur. Müvafiq qurumlar gətirib ora parkomat qoyublarsa, bunun mənimlə nə əlaqəsi var? Küçələrdə kafelərin də qarşısında parkomatlar var. Onu kafe işlədən qoymayıb ki. Yazırlar ki, hansısa aparat pulludur. Həmişə belə söhbəti edirlər ki, həkimlərə pul veririk. Ancaq fakt yoxdur axı. Bir nəfər deyirmi ki, məndən pul alıblar? Bu yalnız qərəzdir".

Z.Əsədov sonra Bəxtiyar Vahabzadənin yuxarıda bəhs etdiyimiz şeirindən bir hissəni söyləyib:

*Yad əlində tapdanırkan*
*şərəf-şan,*
*Türkün türklə ədavətə*
*haqqı yox.*
*Hər işimiz başlanırkan sıfırdan,*
*Türkün türklə ədavətə*
*haqqı yox.*
*Dayaq olsun bu gün gərək, sol sağa,*
*Bu vəhdətdən yurdumuza*
*gün doğa.*
*Bütün millət dönməliykən yumruğa,*
*Türkün türklə ədavətə*
*haqqı yox...*

❑ Əli RAİS

# "Azərbaycan qanunlarını saymadığı üçün Lapşin cəzasını almalıdır"

## Arzu Nağıyev: "Bu məsələ ilə bağlı ən çox çıxış və bəyanatlar yayanlar məhz ermənilərin təsiri altında olan qurumlardır"

**"Məlumdur ki, Lapşin tək bir dəfə deyil, dəfələrlə, o cümlədən 2011-ci ilin aprelində və 2012-ci ilin oktyabrında Azərbaycanın işğal altındakı ərazilərinə qanunsuz səfərlər edib. O, qondarma qurumun təbliğatı ilə məşğul olub, ərazi bütövlüyümüzə qarşı çağırışlar səsləndirib".**

**Politoloq Arzu Nağıyev** bunu Rusiya və İsrail vətəndaşlığı daşıyan qalmaqallı blogger Aleksandr Lapşinin Minskdə saxlanılmasını, daha sonra Bakıya ekstradisiya ilə bağlı müzakirələri şərh edərkən "Yeni Müsavat"a deyib. Ekspertə görə, Lapşinin səfərləri heç də ermənilərin və ya erməni diaspora təşkilatlarının maliyyə və ya digər dəstəkləri olmadan baş verməyib: "Əgər Azərbaycanın ərazi bütövlüyü Lapşinin təmsil etdiyi və ya vətəndaşı olduğu dövlətlər tərəfindən, o cümlədən BMT tərəfindən tanınırsa, Lapşinin bu hərəkətlərinə nə ad vermək olar? Belə məsələlər heç bir dövlət tərəfindən alqışlanır. Məgər Krıma Rusiyanın icazəsi və ya vizası olmadan getmək olarmı? Təsəvvür edin ki, həmin Lapşin İsrail vətəndaşı kimi Ukrayna vizası ilə Krıma gəlir. Təbii ki, bu, mümkün deyil. Eyni zamanda Abxaziya, Cənubi Osetiya və s. bağlı eyni qaydalar tətbiq olunur".


Arzu Nağıyev

A.Lapşinin Minskdə saxlanılması, daha sonra Bakıya ekstradisiya olunması barədə qərar verilməsi şimal qonşumuzda çox əsəbi reaksiyalara səbəb olub. Virtualaz.org xəbər verir ki, Rusiya dairələrində bu məsələyə görə daha çox Belarusa qəzəblidirlər. Rusiyada "axı necə ola bilər ki, özünü Rusiya ilə vahid dövlətin bir hissəsi elan edən Belarus rus vətəndaşını Azərbaycana ekstradisiya etsin, özü də Moskvanın bu məsələdəki çağırışlarını qulaqardına vursun" sualına cavab axtarılır. Şimal qonşumuzdakı reaksiyaların nəzərə alınması və bloggerə güzəşt edilməsi mümkündür, yoxsa digərlərinə dərs olması üçün bu məsələdə sonadək getmək lazımdır?

**A.Nağıyevin sözlərinə görə, bu məsələ ilə bağlı ən çox çıxış və bəyanatlar yayanlar məhz ermənilərin təsiri altında olan qurumlardır:** "Məhz Azərbaycan qanunlarına saymazcasına yanaşdığı üçün Lapşin və digərləri öz cəzalarını almalıdırlar və bu proses davam edəcək. Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşılmalıdır, bu, digər şəxslər üçün də bir dərs olmalıdır. Lapşinin dəfələrlə Azərbaycanın ərazi bütövlüyünə qarşı etdiyi qanunsuzluqlara görə Azərbaycan Baş Prokurorluğu onun barəsində Cinayət Məcəlləsinin 281.2 (dövlətə qarşı açıq çağırışlar) və 318.2 (sərhədi qanunsuz keçmək) maddələri ilə cinayət işi qaldırıb və Lapşin beynəlxalq axtarışa verilib. Belarus dövləti də A. Lapşinin Azərbaycana ekstradisiyası haqqında qərar qəbul edib".

❑ Cavid TURAN

# AVCİYA Ermənistanın Azərbaycana təcavüzünə dair müsabiqə elan etdi

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Ermənistanın Azərbaycana təcavüzünə dair müsabiqə elan edib.**

**Musavat.com xəbər verir ki, AVCİYA "Ermənistanın Azərbaycana təcavüzü media gündəmində" adlı müsabiqəsi haqqında əsasnamə tərtib edib.**

**Əsasnamədə qeyd edilir:**

**1. Ümumi müddəalar**

Müsabiqə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası tərəfindən keçirilir.

Müsabiqənin məqsədi - Ermənistanın Azərbaycana təcavüzünün tarixi və mövcud durumunu elektron və çap kütləvi informasiya vasitələrində geniş işıqlandırmaqdan, potensial oxucu və tamaşaçı auditoriyasının vətənpərvərlik ruhunu daha da yüksəltməkdən ibarətdir.

**2.Müsabiqənin iştirakçıları**

Müsabiqədə elektron və çap kütləvi informasiya vasitələrinin təmsilçiləri, yaşından asılı olmayaraq müstəqil müəlliflər iştirak edə bilərlər.

**3.Müsabiqə 2 nominasiyada keçirilir:**

- Qəzet, jurnal və elektron saytlarda çap olunmuş məqalələr, müsahibələr;
- Televiziya və radioda getmiş veriliş, süjet və ya reportajlar.

**4. Müsabiqənin keçirilmə qaydası**

- Müsabiqədə 1 fevral 2017-ci ildən 30 iyun 2017-ci il tarixədək dərc olunmuş, nümayiş etdirilmiş və ya səsləndirilmiş məqalə, müsahibə, süjet, reportaj iştirak edə bilər (materiallar münsiflər heyəti tərəfindən qiymətləndiriləcək).
- Hər iştirakçı müsabiqəyə istənilən sayda məqalə, müsahibə, süjet və ya reportaj təqdim edə bilər. Təhlil səciyyəli materiallara üstünlük verilir.
- Müsabiqədə Azərbaycan, rus və ingilis dillərində dərc olunmuş məqalələr, televiziya və ya radioda göstərilmiş (səsləndirilmiş) veriliş, süjet və reportajlar iştirak edəcək.

**5. Müsabiqəyə göndərilən materiallar aşağıdakı kimi təqdim olunmalıdır:**

- Çap kütləvi informasiya vasitələri:

Məqalə qəzetdən və ya jurnaldan skaner edilərək, yaxud saytdan linki elektron poçta göndərilir.

- Televiziya:

Materialın internetdəki linki elektron poçta göndərilir.

- Radio:

Materialın internetdəki linki elektron poçta göndərilir.

- İnternet nəşrlər:

Materialın linki elektron poçta göndərilir.

- Elektron poçta göndərilmiş materialda aşağıdakılar göstərilməlidir:

Məqalənin, müsahibənin, verilişin, süjetin, reportajın adı,

Müəllifin adı, soyadı və atasının adı,

əlaqə telefonu (mobil və ya ev telefonu nömrəsi) və elektron poçt ünvanı,

anadan olduğu tarix (il, ay və gün).

Dərc olunmuş media orqanının adı.

Müsabiqəyə göndərilmiş materiallara rəy verilmir.

**6. Müsabiqəyə yekun vurulması və qaliblərin mükafatlandırılması**

- Müsabiqəyə 2017-ci ilin iyun ayının 30-da yekun vurulacaq;
- Müsabiqə qaliblərinə aşağıdakı məbləğdə pul mükafatları və diplomlar təqdim olunacaq:

2 - I yer - 750 manat
2 - II yer - 500 manat
4 - III yer - 250 manat.

**7.Müsabiqəyə təqdim ediləcək materiallar musabiqe@avciya.az elektron ünvanına göndərilməlidir.**

Əlaqə telefonu: 050 244 20 76

❑ **Musavat.com**



## Azay Quliyev 2 fevral Gənclər Günü münasibətilə seçiciləri ilə görüşdü

Deputat Azay Quliyev yanvarın 30-da seçicisi olan gənclərlə Binəqədi rayonunda görüş keçirib.

Musavat.com xəbər verir ki, 2 fevral Gənclər Gününün elan olunmasından ötən 20 il ərzində ölkəmizin böyük inkişaf yolu keçdiyini deyən Azay Quliyev dövlətimizin gənclərə olan qayğısı haqqında danışıb. Azay Quliyev Azərbaycan müstəqillik əldə etdikdən sonra gənclər hərəkatının formalaşma mərhələləri, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 2 fevral 1996-cı ildə birinci Gənclər Forumunun keçirilməsi, bu tarixi proses haqqında xatirələrini bölüşüb.

Deputat Azay Quliyev Leyla Quliyeva, Fidan Axundova, Nurlan Hacıyev, Sona Quliyeva və digər gənclərin beynəlxalq əməkdaşlıq proramlarında iştirak, multikulturalizm sahəsində həyata keçirilən layihələr, beynəlxalq münasibətlərdə ikili standartların tətbiqi, gənclərin könüllülük mübadiləsi, təhsil və digər mövzularda suallarını cavalandırıb.

Gənclər çıxış edərək təhsilində və ictimai fəaliyyətində fərqlənən bir qrup gəncin valideyninə Gənclər Günü münasibətilə ünvanladığı məktuba görə deputatları Azay Quliyevə təşəkkürlərini bildiriblər.

Azay Quliyev görüşdə müzakirə olunan məsələlərin icrası və gənclərin irəli sürdüyü məsələlərin həlli ilə bağlı təkliflərini verib.

❑ **Musavat.com**



## BQXK əməkdaşları Dilqəm Əsgərov və Şahbaz Quliyevlə görüşüblər

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları Dağlıq Qarabağda saxlanılan azərbaycanlılara baş çəkiblər.

BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova APA-ya bildirib ki, başçəkmə ötən həftə baş tutub.

BQXK-nın nümayəndələri Dağlıq Qarabağda saxlanılan azərbaycanlılara ailələrindən məlumatlar çatdırıb, onlardan da ailələri üçün məlumat alıblar.

Qeyd edək ki, 2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz "məhkəmə" qurulub. "Məhkəmə"nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib.

# Azərbaycanda siyasəti də böhran vurub...

## "Belə bir vəziyyətin həm də siyasi hakimiyyətə mənfi təsirləri var"

**Ölkədə təkcə iqtisadi deyil, həm də siyasi böhran yaşanır. Bəzi ekspertlərin fikrincə, siyasi böhran daha çox ölkə müxalifətini çökdürüb. Müxalifət hadisələrə operativ reaksiya vermir, əksər hallarda susqunluq nümayiş etdirir, həmçinin sivil etiraz metodlarından istifadəyə ehtiyac görmür. Ekspertlər müxalifətin susqunluğunun ölkəni daha çətin duruma düşürəcəyini vurğulayırlar.**

Bildirilir ki, müxalifətin öz daxilindəki problemlərə başının qarışması da siyasi böhranın dərinləşməsini şərtləndirir. Müxalifət bu cür situasiya ilə bağlı nə düşünür? Ölkənin siyasi böhrandan çıxması ehtimalı nə qədərdir? Siyasi böhran Azərbaycana nə vəd edir? Söhbətləşdiyimiz müxalifət təmsilçiləri məsələ ətrafında fikirlərini musavat.com-la bölüşüblər.

**KXCP sədrinin müavini Xəzər Teyyublu** musavat.com-a bildirib ki, illər uzunu Azərbaycan hakimiyyətinin ölkə siyasətində məqsədli şəkildə yaratdığı bu cür vəziyyət həm də siyasi partiyaların fəaliyyətinə çox mənfi təsir edib: "O qədər təsir edib ki, bu cür siyasi partiyalar da normal birliyə yönəlik bir fəaliyyət göstərə bilmirlər. Çünki zaman-zaman bir çox birliklər yaranıb, dağılıb, yenidən formalaşdırılıb. Hakimiyyət bir partiyanı seçkiyə buraxıb, o birini seçkidən kənarlaşdırır. Birini namizəd kimi qəbul edib və məqsədli şəkildə müxalifət düşərgəsinə bir şübhə toxumu da səpib ki, bir-birini hansısa anlamda ittiham edə bilsinlər. Konkret olaraq elə bir vəziyyət yaradıblar ki, Azərbaycanda siyasi dəyişiklik hiss edən adamlar, ölkənin gələcəyi üçün birləşmək istəyənlər mütləq birləşəcəklər. Bunun başqa yolu yoxdur. Birləşməyənlər yenə kənarda qalacaq. Bütün hallarda bu cür vəziyyətin yaranması illər uzunu Azərbaycanda siyasəti bu hala gətirib. Siyasi müxalifətin artıq ona gücü çatmır. Bu gün bütün partiyalar yerindədur, amma konkret olaraq bunların bir yerdə oturması, bir yerdə əyləşməsi üçün mütləq ölkədə bir siyasi dəngələr dəyişməlidir, siyasi bir proses olmalıdır ki, bu prosesdə onlar bir yerdə otura bilsinlər. Yoxsa belə mümkün deyil. Əgər belə davam edəcəksə, bir müddətdən sonra əlbəttə ki, konkret olaraq zaman keçdikcə digər siyasi qüvvələr başqa bir format ortalığa çıxa bilərlər. Bu, uzun illərdən sonra ola bilər. Amma belə bir vəziyyətin həm də siyasi hakimiyyətə mənfi təsirləri var. Çünki zaman-zaman problemləri belə hala çatdırmaqla ölkədə demək olar ki, tək partiya qalıb. Ölkənin də bu vəziyyəti, böhranı da, digər vəziyyəti də hakimiyyətin üzərinə düşür. Artıq bunu özü edib, özü də bu məsuliyyəti çəkməlidir".

**Ümid Partiyasının sədr müavini Taleh Əliyev isə musavat.com-a bildirib ki, bu, hakimiyyətin yarıtmaz siyasəti nəticəsində meydana gəlmiş bir böhrandır:** "Siyasi böhran da iqtisadi böhranın getdikcə dərinləşməsi fonunda baş verəcək. Hakimiyyət müəyyən qabaqlayıcı addımlar atmaq istəyir, amma təəssüflər olsun ki, bu addımlar böhranı önləmək əvəzinə bir az da dərinləşməsinə xidmət edir. Ümid Partiyası olaraq biz ikinci devalvasiyadan sonra hökumətin antiböhran fəaliyyəti ilə məşğul olması üçün antiböhran proqramı ilə çıxış etdik. Amma təəssüflər olsun ki, hökumət bu proqramı tətbiq etmədi, bu istiqamətdə müzakirələrin aparılmasına şərait yaratmadı. Bu təkliflə təkcə Ümid Partiyası çıxış etmədi. Bir sıra partiya və təşkilatlar böhrandan çıxmaq üçün təkliflər verdilər. Amma hakimiyyətin yanaşması başqadır. Hakimiyyətin 2015-ci ildən bu yana qəbul etdiyi qərarlar dünyada neftin ucuzlaşması nəticəsində iqtisadiyyatı neftdən asılı olan ölkələrdə böhranın qarşısının alınmasına hesablanmış fəaliyyətin biz şahidi olmuruq. Baxmayaraq ki, hökumət iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı qərarlar qəbul edir, əvəzində iqtisadiyyatın monopoliyalaşması, iqtisadiyyatın tək əldə cəmləşdirilməsi, kiçik və orta sahibkarlığın dəfn edilməsi, orta təbəqənin müflisləşdirilməsi siyasəti aparılır. Ola bilsin ki, hakimiyyətin daha yuxarı səviyyəsində bunun o qədər də fərqinə varılmır. Müasir lətifədə də belə deyilir ki, Azərbaycanda varlılar ət yeyir, kasıblar kələm, orta hesabla, bu, ölkədə kələm dolmasının yeyilməsi hesab edilir. Yuxarı təbəqə də ölkədə baş verən hadisələri özlərinin həyat tərzi ilə yoxsullaşmış əhalinin yaşayış tərzi arasındakı fərqə baxanda, məlum olur ki, əhalinin orta gəliri 99 manatdır. Ona görə də bu yanlış statistikalar yuxarı hakimiyyətə yanlış çatdırıldığına görə böhranın dərinləşməsi ilə bağlı yuxarıların adekvat addımları hiss olunmur. Bir çoxlarının da sosial şəbəkədə qeyd etdiyi kimi, hökumət 2020-ci ilə qədər Azərbaycanda kasıbçılığın ləğvini kasıbların ləğvi siyasəti formasında anlayır və o istiqamətdə də israrla fəaliyyətini davam etdirir".

❑ **RÖYA**



# Müşavirin yox olmaq planları

**Zamin HACI**
zaminhaci@gmail.com

**Amerika prezidenti Tramp bir çox müsəlman dövlətlərindən gələn qonaqlara qadağa qoyubdur. Sevindirici haldır ki, o siyahıda Azərbaycanın adı yoxdur. Bir yandan da düşünürsən bəlkə Tramp bizi, inteligent Həsən bəyin sözü olmasın, "istinni müsülmanin" saymır? Bir az da "əsl islam o deyil, əsl islam bu deyil" söhbəti fason bir şey... O zaman biz müsəlman qardaşlarımızın üzünə necə baxaq? Üstəlik, bu il - 2017-ci il dövlət səviyyəsində "İslam həmrəyliyi ili" elan olunubdur, bu haqda qərar Nazirlər Kabinetinin prezidentin başçılığı altında keçirilən iclasında qəbul edilibdir.**

İndi belə çıxır ki, biz başqa müsəlman qardaşlarımızla həmrəy deyilik? Ən azından, gərək Elmar müəllim ABŞ səfiri 4-cü Eskudero yoldaşı çağırıb danlayaydı. *(Mən ABŞ səfirlərini indən belə bu cür sıralamaq tərəfdarıyam, onsuz hamısı Bakıda bir az yaşayandan sonra YAP üzvü Eskuderoya oxşamağa başlayırlar; dəli şeytandan indicə aldığım məxfi xəbərə görə, bu oxşamağın əsas səbəblərindən biri səfirliyin Nəsimi polis idarəsi ilə üzbəüz olmasıdır - səfirin də balası var, neyləsin fağır?)* Hətta nota-zad vermək də olardı, sonra uzağı deyərdik çaşıb vermişik, notamızı geri qaytarın, ayrı ölkəyə verəcəyik, axırıncı nota idi.

ABŞ-ın gəlişinə qadağan qoyduğu camaatlar arasında İran və İraq da var, bu ölkələr isə əks addım atıblar, ABŞ vətəndaşlarının ölkələrinə eyni müddətə - 90 günlüyə girməsini yasaqlayıblar. İran heç, İraq niyə belə eləyir, bir az adamın gülməyi tutur. Amerikalılar guya haçansa İraqa viza ilə giriblər... Ən son 2003-cü ildə Səddam müəllim geniş viza paketi elan etmişdi, intəhası o viza ilə gələn yankilər müəllimi tutub asdılar. Ümumiyyətlə, Ayı az qala Fəvvarələr meydanına döndərən, Marsı da 3-cü mikrorayon "kruquna" çevirən heyvərə dövlətlərə burda - Yer kürəsində giriş qadağası qoymaq bir az çətin işdir. Bunun üçün ya güclü "dövlət təminatı" (o teletamaşada deyiləndən) olmalıdır, ya da gərək bütün millətlə tamlaşıb, manyaklaşıb ərazidə Şimali Koreya qayırasan.

Hərçənd indi bu saat Trampın apardığı çəpərləmə siyasəti Amerikanın özünü elə Şimali Koreyaya döndərmək üzrədir. Əbədi bir paradoks yenidən ortaya çıxıbdır: nə ilə çox mübarizə aparsan, özünün də ona çevrilmək təhlükən var. Biz bunun cupbulu formasını Azərbaycanda yaşamışıq. Müxalifət partiyaları var idi, YAP-la uzun müddət savaşdılar, bir gün ayılıb gördük ki, bunlar özləri balaca-balaca "yapcıqlara" dönüblər, hərəsinin başında isə bir əvəzedilməz, oddayanmaz, sudabatmaz lider oturubdur.

Sözümün canı odur ki, İslam həmrəyliyi, dövlətin hasarlanması, xoşun gəlməyən qonağı qapıdan qovmaq tipli geopolitik işlərdə bacarıqlı olmalıyıq, daim dövlət mənafeyimizi, uca millətin gələcəyini düşünməliyik. Bu mənada, dünən bir kitab haqda resenziyadan oxuduğum cümlə məni heç açmadı.

Kamal Abdullanın "Edam vaxtını dəyişmək olmaz" adlı hekayələr kitabına tənqidçi Aydın Talıbzadə belənçik ön sözlər yazmışdır: "Yazıçının əsl hədəfi hekayələr uydura-uydura, uydurduğunu sözlər harmonasiyasında təsvirləyə-təsvirləyə, təsvir etdiyini bədii bütövcəyə çevirə-çevirə "yox olmaq" və göylərə uçmaqdır: "Nirvana.. Hekayələrində Kamal vaxtı dayandırmağı xoşlayır" və sairə.

Birincisi, kitabın adı, məncə, humanist prinsiplərə söykənən dövlətçiliyimizə uymur. İkincisi, vaxtı niyə dayandırırsınız? Ölkəmiz sürətlə inkişaf edir. Bunu mən xüsusən ona görə vurğuladım ki, Kamal müəllim dövlət məmurudur, prezidentin multikulturalizm, millətlərarası və dini məsələlər üzrə müşaviridir. Belə məsul vəzifə daşıyan adamın kitabına "hekayələr uydurur", "yox olmaq", "göylərə uçmaq" fikrindədir yazmaq nə dərəcə düzgündür? Sən yox ol, mən yox olum, o biri yox olsun - bəs dövlət müşavirinin işini kim görəcək? Şəxsən öz adımdan xahiş edirəm, əgər Kamal müəllimin yox olmaq fikri varsa indiki vaxtda bu fikirdən qəti vaz keçsin. İslam həmrəyliyi ilini yola verməliyik. Yayda müsəlman oyunları var. Hələ bəlkə Amerikaya nota verdik. Yerdə iş xirtdəyə qədərdir, uçmaq da lazım deyildir.

İndi söz əlaqədar təşkilatlarındır - sizi görüm uçasınız.

**Yeni ilin ilk ayı Qarabağ danışıqlarında heç bir pozitiv yeniliklə yadda qalmadı. Ancaq yanvar ayı Azərbaycanın Ermənistan üzərində bir neçə diplomatik və təbliğati uğuru ilə diqqət çəkə bildi. Onlardan biri, heç şübhəsiz, yəhudi əsilli blogger Aleksandr Lapşin məsələsində Bakının göstərdiyi prinsipiallıq nəticəsində, faktiki, onun Azərbaycana ekstradisiyasının təmin edilməsidir.**

## Azərbaycan İrəvana qarşı strategiyasını sərtləşdirir

# Qarabağda mini-müharibələr taktikası - Bakının yeni yol xəritəsi

### İşğalçıya qarşı çoxşaxəli diplomatik həmlələr; - rusiyalı ekspert ədalətli sülh və Azərbaycan iqtisadiyyatı üçün ən optimal yolu göstərdi




Ən önəmlisi - Ermənistanın təcridini gücləndirmək üçün Azərbaycanın ona qarşı diplomatik müstəvidə taktika və strategiyasını sərtləşdirməsidir. Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) son qış sessiyasında ermənilər və onların bu qurumdakı lobbiçilərinin canfəşanlığına rəğmən, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi və işğalda altda olduğunu təsdiqləyən sənədin qəbul olunması bunun növbəti bariz təzahürlərindən biri və diplomatik uğur sayıla bilər.

Rəsmi Bakı həmçinin digər regional və beynəlxalq strukturlarda (ATƏT, Avrasiya Birliyi, KTMT) də İrəvanın mövqeyini sarsıtmaq kursu götürüb. Artıq məlumdur ki, Azərbaycan ATƏT-in İrəvan ofisinin qapadılması yönündə mövqe ortaya qoyub. Avrasiya Birliyi və KTMT təşkilatları çərçivəsində Azərbaycanın Qazaxıstan, Belarus timsalında dost ölkələr hesabına Ermənistandan da güclü nüfuz sahibi olması da sirr deyil.

*****

**Bu xüsusda rusiyalı politoloq Aleksandr Skakovun news.am nəşrinə açıqlaması maraq doğurur.**

"Azərbaycan öz qarşısına Dağlıq Qarabağ üzərində onun hərbi-siyasi nəzarətini bərpa etmək strategiyasına mane olan istənilən beynəlxalq təşkilatın fəaliyyətini bloklamaq və məhdudlaşdırmaq məqsədi qoyub". Bu barədə politoloq Bakının ATƏT-in İrəvan ofisinin işini əngəlləməyə yönəlik mövqeyini həmin nəşrə şərh edərkən deyib.

**Onun sözlərinə görə, Bakının hədəfləri sırasına ATƏT və onun Minsk Qrupu da daxildir.** "AŞ PA oradakı aşkar Azərbaycan lobbisinin mövcudluğu səbəbindən hələ ki Bakının belə təzyiqlərə məruz qalmır. Ermənistanla qarşıdurmada indilikdə rəsmi Bakının siyasətinin bir neçə istiqamət üzrə fəallaşması açıq-aşkar görünür - bu zaman Ermənistanda daxili siyasi böhranın əlamətləri də istifadə olunmaqla. Azərbaycan eyni zamanda Dağlıq Qarabağ nizamlanmasında öz mövqeyini gücləndirmək üçün beynəlxalq münasibətlərdəki müəyyən dayanıqsızlıqdan *(Avropa Birliyində böhran, Ağ Evdə administrasiyanın dəyişməsi və s.)* da yararlanmağa çalışır. Avropa Birliyi daxilindəki böhran - hansı ki, ATƏT- ə də sirayət edib, AB ilə Rusiya arasında pis münasibətlər Bakıya şans verir ki, ATƏT-i zəiflətsin və həmin şansdan da istifadə edir. Bu da məntiqlidir: çünki nəzarət azaldıqca, əl-qol daha çox açılır. Məhz əl-qolun tamamilə açılmasına nail olmaq Azərbaycanın maraqlarına daxildir. Bundan ötrü ən yaxşısı hamının bir-biri ilə "çəkişməsidir" - həm də Avrasiya Birliyi, KTMT çərçivəsində" -, deyə rusiyalı analitik qeyd edib.

*****

Bakının işğalçı ölkənin Qarabağ məsələsində mövqeyini zəiflətmək və yeni, daha məqbul, daha ədalətli həll formatının ortaya çıxmasına nail olmaq istəyi əlbəttə ki, təbiidir. Çünki 24 ildir ki, köhnə format - Minsk Qrupu heç bir nəticəyə nail olmayıb, Ermənistanla hələ də işğalçı kimi davranılmır. Sözsüz ki, Azərbaycan belə vəziyyətə, işğal rejiminə, mövcud status-kvoya sonsuzadək dözüm göstərmək niyyətində deyil və diplomatik, hərbi-siyasi çıxış yolları axtarır.

"2017-ci ildə hansısa Qarabağ nizamlanması gözlənilmir. Yalnız beynəlxalq hüquqa və Azərbaycanın ərazi bütövlüyünü tanıyan, erməni birləşmələrinin işğal altındakı ərazilərdən çıxmasını tələb edən BMT qətnamələrinə istinad eləmək sadəlövhlük olardı. Gözümüzün önündə mövcud dünya düzəni dağılır. Dünyanın əsas siyasi institutu olan BMT böhran yaşayır və öz əvvəlki təsirini itirib. Minsk Qrupu isə ümidsiz amorf struktura çevrilib və münaqişə tərəflərinə ciddi təsir eləmək gücündə deyil". Bu sözləri isə vesti.az saytına açıqlamasında Azərbaycan əsilli rusiyalı politoloq Mehman Qafarlı bildirib.

**Onun qənaətincə, yaranmış durumda Azərbaycan üçün yeganə çıxış yolu - kiçik müharibələrdəki qələbələr hesabına erməni qüvvələrini işğal altındakı ərazilərdən sıxışdırmaqdır:** "Özü də əvvəlcə erməni qüvvələrini Dağlıq Qarabağdan sıxışdırıb çıxarmaq lazımdır. Çünki onlar Dağlıq Qarabağ, Laçın və Kəlbəcər uğrunda inadla vuruşacaqlar, yerdə qalan 5 rayonu isə elə bir döyüş olmadan tərk edəcəklər".

**Ekspertə görə, kiçik müharibələr 7-8 gündən artıq çəkməməlidir:** "Ona görə ki, Rusiya Ermənistana qarşı davamlı döyüş əməliyyatları aparmağa imkan verməz. Və düşmənə sürətli sarsıdıcı zərbələr vurub konkret vəzifələri yerinə yetirəndən sonra əməliyyatları dayandırmaq və danışıqları bərpa eləmək olar - apreldəki kimi. Belə qısamüddətli müharibə dünyada böyük rezonans doğurmayacaq. Bu, maliyyə nöqteyi-nəzərdən də əlverişlidir və Azərbaycan iqtisadiyyatına təhlükə yaratmayacaq, sərmayəçi və kapitalın ölkədən getməsinə gətirməyəcək".

**Ekspert hesab edir ki, Azərbaycan ordusunun 5-6 belə uğurlu əməliyyatından sonra Dağlıq Qarabağda dinc əhali qalmayacaq.** "Dinc əhalinin ardınca isə Azərbaycanla qarşıdurmada qələbə inamını itirən erməni hərbi qüvvələri də çıxıb gedəcək. O zaman Ermənistan özü məcbur olacaq ki, sülh müqaviləsi imzalayıb Azərbaycanın ərazi bütövlüyünü tanısın və bölgədə möhkəm sülh bərqərar olsun" - politoloq sonda əlavə edib.

*****

Yuxarıda deyilənləri Azərbaycan üçün müəyyən mənada 2017-ci ildə Qarabağa dair "yol xəritəsi" də adlandırmaq olar. Bir şeyi əminlikdə qeyd eləmək olar ki, Bakı işğalçıya daha güclü təsir eləmək üçün bu il öhdəsindəki həm siyasi-diplomatik rıçaqlardan, həm də və əlbəttə ki, hərbi faktordan maksimum istifadə edəcək. Bu, şübhə yox ki, ilk növbədə təcavüzkarı və onun havadarlarını danışıqlar masası arxasında konstruktiv mövqeyə vadar eləmək üçün gərəkdir.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 21 (6635) 31 yanvar 2017

**Yanvarın 29-da Kanadanın Kvebek şəhərində məscid kimi istifadə olunan mədəniyyət mərkəzinə silahlı hücum olub. Namaz zamanı 3 silahlı şəxs məscidə daxil olaraq, oradakıları güllələməyə başlayıb. Kvebek İslam Mədəniyyət Mərkəzinin rəhbərliyi 5 nəfərin həlak olduğunu açıqlayıb. Kanada polisi isə Kvebek şəhərində məscidə hücum nəticəsində 6 nəfərin həlak olduğunu, 8 nəfərin yaralandığını bildirib.**

# Dünyanın ən sabit ölkəsinə də terror ayaq açdı - Kanada qətliam...

## Tanınmış politoloqdan Kanadada məscidə silahlı hücumun arxasında kimlərin dayandığı barədə versiyalar



Hadisənin axşam namazı zamanı baş verdiyi bildirilir. Hücum edənlər maskalı olublar və atəş açarkən, “Allahu-əkbər!” deyə qışqırıblar.

**Kanada radiosuna müsahibə verən şahidlər silahlıların yerli ləhcə ilə danışdığını vurğulayıblar.** “Onlar dua edənlərə atəş açırdılar. Namaz üstə olanlar öldülər. Güllələrdən biri başımın üstündən keçdi”-şahidlərdən biri hadisəni belə təsvir edib. Yerli KİV hücumda 3 terrorçunun iştirak etdiyini bildirir. Artıq hüquq-mühafizə orqanları 2 şübhəli şəxsi saxlayıb. Tutulanlardan birinin 27 yaşı olduğu, kvebeklilərə məxsus soyadı daşıdığı bildirilir. Qeyd edək ki, Kvebek vilayətinin və şəhərinin əhalisinin əksəriyyəti fransız mənşəlidir.

Hadisə zamanı ölüm faktını polis də təsdiqləyib, ancaq ölənlərin, ya da yaralıların sayı barədə dəqiq bir söz deyilmir. Polis durumu nəzarətdə saxladığını bildirib.

Şahidlərin “Reuters” xəbər agentliyinə bildirdiyinə görə, hücum zamanı məsciddə 40 nəfər varmış. Yerli media isə bu rəqəmin 100-ə yaxın olduğunu yazır. Yaralılar şəhərin müxtəlif xəstəxanalarına aparıldığından onların sayı haqda hələ ki bilgi yoxdur.

“Reuters” Kvebekdə son illər müsəlmanlara qarşı insidentlərin tez-tez qeydə alındığını vurğulayır. Keçən ilin iyununda-Ramazan bayramı zamanı kimsə həmin məscidin qapısına donuz başı atıbmış.

Kanadanın baş naziri Justin Trudeau twitter hesabında ölənlərin ailələrinə başsağlığı verib, bütün kanadalıların dərin kədər içərisində olduğunu yazıb. Kvebek qubernatoru Philippe Couillard hadisəni “vəhşi zorakılıq” adlandırıb, ölənlərin ailələri ilə həmrəyliyini bildirib.

Kvebekdə müsəlmanların sayı getdikcə artmaqdadır və bu, yerli millətçilərin narahatlığına səbəb olurdu. 2015-ci il seçkilərində niqaba qadağa, bütün ölkədə olduğu kimi, Kvebekdə də geniş müzakirə mövzularından idi və əhalinin böyük hissəsi qadağanın saxlanmasına tərəfdar olduğunu bildirmişdi.

Kvebek vilayətinin baş naziri Filip Kuyar isə bildirib ki, Kanadada məsciddə 5 nəfərin ölümü ilə nəticələnən silahlı insident terror aktıdır. F. Kuyar Kvebek parlamentinə vilayətin bayrağının endirilməsi ilə bağlı müraciət edib.

Məscidə hücumun səbəbi məlum deyil, araşdırmalar aparılır.

Dünyanın ən sakit, demokratik, tolerant və yüksək sosial təminatın mövcud olduğu ucqar ölkəsində bu cür silahlı terror aktı ilk dəfədir yaşanır. Kanada kimi ölkəyə də terrorun ayaq açmasının səbəbləri barədə ekspertlər müxtəlif ehtimallar irəli sürürlər.

**Politoloq Qabil Hüseynli “Yeni Müsavat”a bildirdi ki, Kanadada baş verən hadisə tükürpədici hadisədir. O nöqteyi-nəzərdən ki, indiyə qədər Kanada tarixində millətlərarası, dinlərarası zəmində hər hansı bir münaqişə olmayıb. Terror hadisəsində bir neçə versiyanı irəli sürmək olar:** “Multikulturalizm deyilən elm sahəsi ötən əsrin 60-cı illərində məhz Kanadada meydana gəlib. Multikultiralizm əvvəllər də mövcud olub, amma multikultiralizm və dinlərarası tolerantlıq ideyasını elm halına salan kanadalılar olublar. Kanada çoxmillətli ölkədir və burada millətlərarası, konfessiyalararası münasibətlərə çox böyük diqqət yetirilir. Bu, dövlət siyasəti səviyyəsinə qaldırılıb. Ölkədə həyata keçirilən insan hüquqları və demokratik dəyərlərin tərkib hissəsi kimi elan olunub. Ona görə də ABŞ prezidenti Donald Tramp müsəlman kökənli miqrantların ölkəsinə qəbul etməkdən imtina qərarı verəndən sonra Kanadanın baş naziri həmin miqrantları Kanadaya dəvət etdi. Bu gün Kanada qaçqınların ən çox sığındığı, həm də qaçqınların ən yüksək təminat səviyyəsinə malik olduğu bir ölkədir. İndi belə bir ölkədə terror hadisəsinin baş verməsi hamını təəccübləndirir”.

**Politoloq güman edir ki, Kanadadakı hadisə daha çox təxribat hadisəsidir. Onu kimin nə məqsədə törətməsinə gəlincə, bir neçə ehtimallar irəli sürülə bilər:** “Kanadada çoxdan yerləşmiş və indi də yerləşməkdə davam edən miqrantların içərisində radikal əhval-ruhiyyəlilər Kanada məscidin olmamasına bir protest kimi həmin hadisəni törədə bilərlər. Ehtimallardan biri budur. Bunun son dövrlərdə Kanadaya gəlmiş, İŞİD və ya "Müsəlman qardaşlığı" əhval-ruhiyyəli terrorçuların əli ilə həyata keçirildiyini ehtimal etmək mümkündür. Bu hadisənin həm də xüsusi xidmət sahələrinin, Qərbin xüsusi xidmət dairələrinin işi də olması ehtimalını irəli sürmək olar. Çünki Kanada fərqli dinlərə, mədəniyyətlərə multikultural yanaşmanın tamamilə yeni modelini ortaya qoymağa başlayıb. Bu da ola bilsin ki, müsəlman ölkələrindən olan miqrantları, mühacirləri qəbul etməyən ABŞ-da və Avropa Birliyi ölkələrində müəyyən qıcıq yaradıb. Bu nöqteyi-nəzərdən onların da bu hadisədə müəyyən rolunun ola biləcəyi ehtimalı üzərində dayanmaq mümkündür. Amma mən birinci yerə müsəlman ölkələrindən gəlmiş və bir az adaptasiya olunduqdan sonra çox böyük iddialara düşən və dövlətdən daha böyük imtiyazlar tələb edən qaragüruhçu millitar xarakterli insanların bu terror aktını həyata keçirdiyi versiyasını qoymaq istərdim. Onlar Kanadaya miqrant axınını dayandırmağa əsas verməyə çalışırlar".

**Politoloq hesab edir ki, Kanadada terrorun davamlı prosesə çevrilməsi ehtimalı yox səviyyəsindədir:** “Ölkəyə gələn miqrantların daha ciddi yoxlanışı tətbiq ediləcək. Miqrantlar yaşayan bölgələrdə polis və xüsusi xidmət orqanlarının nəzarəti gücləndiriləcək. Miqrantların ehtiyac duyduğu dini ibadət yerlərinin açılması məsələsində də ola bilsin tərəqqi olsun”.

❑ **Etibar SEYİDAĞA**

# Bir zənglə dünya siyasəti dəyişərmi?..



**Hüseynbala SƏLİMOV**

**Hamı maraq içində idi. Şəxsən mən özümə yer tapa bilmirdim. Hətta telefon danışığının baş tutduğu haqda ilk xəbərlər gələndə tələsmədim və onun bir neçə mənbədən təsdiq olunmasını gözlədim ki, görüm bu danışığın təfərrüatları haqqında nəsə öyrənə bilirəmmi?**

Səbəb də bu idi ki, telefon danışığı ərəfəsində artıq D.Tramp administrasiyasının Rusiya ilə bağlı sanksiyaları ləğv etməyi nəzərdə tutan qanun layihəsi hazırladığı deyilirdi. Amma deyilənlər düz çıxmadı və ən azı mən heç bir mənbədən oxumadım ki, Tramp sanksiyaları ləğv etdiyini bildirib. Əksinə, məlum oldu ki, ABŞ prezidenti İngiltərənin baş naziri ilə söhbətində bunun “hələ tez olduğunu” bildirib...

İnanın, Rusiyaya qarşı sanksiyaların götürülməsinin heç də əleyhdarı deyiləm. Hətta D.Trampın ABŞ-ın dünyadakı rolunun bəzi məqamları ilə bağlı dediklərində bir sıra detallarla da razılaşıram. Amma bu nəyinsə qarşılığında olmalıdır, Rusiya da özünün bölgədəki və dünyadakı roluna, siyasətinə nəzər salmalıdır, geri çəkilməlidir...

Bu gün Avropa siyasətçiləri maksimum dərəcədə çalışırlar ki, D.Tramp qərarı ilə tələsməsin, ən azı Minsk sazişinə əməl olunandan, Rusiya Ukraynadakı siyasətindən əl çəkəndən sonra sanksiyalar götürülsün...

Mən bura hətta digər MDB münaqişələrini də əlavə edərdim. Amma ki, ən azı Ukrayna ilə bağlı tələblər minimum olmalıdır...

Rusiyanın bu vaxta qədər etdiklərini bir tərəfə qoyur, tarixə varmaq istəmirəm. Amma o, suveren ölkənin ərazisini işğal etdi və orada “referendum” keçirərək onu ilhaq etdi. Üstəlik, Ukraynanın şərqini də nəzarətə götürdü. Biz isə gözləyirik ki, belə bir ölkə haçansa insafa gəlib Qarabağ problemini həll edəcək, Abxaziya və Osetiyadakı durumu çözəcəkdir. Real siyasətdən azacıq da olsa xəbəri olan bir adam heç belə ümidlərə qapılarmı?..

İnanın, ABŞ-ın siyasətində də heç də hər şeyi təqdir etmirəm. Hətta düşünürəm, BMT-ni tənqid edən D.Tramp bu təşkilatın effektsiz duruma gəlməsinin səbəblərini başqa müstəvidə aramalı idi.

Bəli, BMT ona görə bu hala düşüb ki, o, iki-üç böyük dövlətin oyuncağına çevrilibdir və düşünürəm ki, təşkilatı belə bir vəziyyətdən çıxartmaq üçün ilk növbədə onu iki-üç böyük dövlətin əsarətindən xilas etmək lazımdır. Bunun üçünsə onu İkinci Dünya müharibəsinin “reallıq”larından azad etmək və təşkilat üzvlərinin daimi və qeyri-daimi üzvlərə bölünməsi praktikasına son verilməlidir...

Digər məsələlərdə də razı olmadığımız məqamlar var. Yadıma gəlir, ilk dəfə Z.Bjezinskinin “Böyük şahmat taxtası” kitabını oxuyarkən çox acı və ağır hiss hakim kəsilmişdi mənə...

Ona görə ki, hər bir demokratik düşüncə sahibi bunları dünyanın nizamında da görmək istəyir və fikirləşir ki, dünya da “maraqlar balansı” üzərində deyil, hüquq və prinsiplər üzərində qurulmalıdır...

Amma görək, ruslar və Rusiya sadaladıqlarımın hansını qəbul edir? Bu deyilənlərin hansı ilə razılaşır? Təəssüf ki, heç biri ilə!..

İndi 1991-ci ildən sonra bərqərar olmuş geosiyasi arxitekturadan gileylənirlər və faktiki olaraq onu qəbul etmədiklərini bildirirlər. Amma yadıma gəlir ki, xeyli müddət NATO Rusiyanı öz sıralarına dəvət etdi. Di gəl, rusların cavabı nə oldu? Dedilər ki, bizə xüsusi status verin... Bəli, bu ölkə hər yerdə xüsusi status istəyir: bunların BMT-də xüsusi statusu olmalıdır, NATO-da xüsusi statusu olmalıdır!.. Bununla barışmaq olarmı? Bu ölkə keçmiş SSRİ məkanını qismən itirməsi ilə razılaşmır və indiyədək onu qaytarmağa çalışır...

Ona görə də bir daha deyirəm ki, Rusiyaya əl uzatmaq olar, hətta ona qarşı sanksiyaları da götürmək haqqında da düşünmək olar, amma bircə şərtlə - Rusiya da öz siyasətini təftiş etməlidir... Edirmi? Edəcəkmi?.. Çox təəssüf ki, yox...

V.Putin hakimiyyətdə olduğu bu müddətdə çox mübahisəli fikirlər deyibdir. Di gəl, mənə elə gəlir ki, onun ən mübahisəli fikri bu olub ki, daim rusiyalılara ölkələrinin indiyə qədərki və bugünkü işlərinə, siyasətinə görə utanc keçirməməyi, peşmançılıq və günah hislərini heç bir halda özlərinə yaxın buraxmamağı təlqin edib...

Halbuki, peşmançılıq keçirmək və özünü günahkar hesab etmək üçün nə qədər əsas var!.. Elə bu səbəbdən də Tramp da bir az düşünməlidir - dünya hələ bir zənglə düzələsi deyil...

YENİ MÜSAVAT
N 21 (6635) 31 yanvar 2017

**Amerikanın yeni prezidenti Donald Trampla azərbaycanlı biznesmenlər, hakimiyyət nümayəndələri, sənət adamlarının əlaqələri günlər keçdikcə üzə çıxır. Son olaraq da iş adamı, “Palmali” şirkətlər qrupunun prezidenti Mübariz Mənsimovun Ağ Evin yeni sahibi ilə yaxşı münasibətlərinin olması xəbəri yayılıb...**

# Azərbaycanlı oliqarxların Tramp sevgisi...

## “ABŞ prezidentinin azı 4 azərbaycanlı dostu var”



Zaman-zaman xarici ölkələrlə əlaqələri olan bu tipli insanlara iqtidar dairələrinin qısqanclıqla yanaşdığının şahidi olmuşuq. Hətta onlar təzyiqlərdən də qurtula bilməyiblər. Maraqlıdır, bu dəfə hakimiyyət hansı mövqeyi sərgiləyəcək?

**Politoloq Elxan Şahinoğlu düşünür ki, əslində Azərbaycan və Amerika tarixində görünməyən hadisə baş verib:** “Dünyanın supergücü olan Amerikanın yeni prezidenti Donald Trampın ən azı 4 azərbaycanlı dostu var və Ağ Ev sahibinin özünün və qızının bunlardan hər biri ilə birgə şəkilləri mövcuddur: Araz Ağalarov, Emin Ağalarov, Mübariz Mənsimov və Anar Məmmədov. Bu dostluq Trampın hələ biznesmen olduğu illərə təsadüf edir. Bunun özü müsbət haldır. Əlbəttə, bu dostluqdan uzaqgedən nəticə çıxarmağın da doğru olmadığını düşünürəm. Məsələn, Tramp indiki gedişlə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini sürətləndirən deyil. Digər tərəfdən, azərbaycanlı oliqarxların Tramp və ya onun administrasiyasındakı dostları ilə Qarabağ mövzusunda hər hansı müzakirə apardıqlarını düşünmürəm. Ancaq yaxşı fürsət yaranıb ki, rəsmi Bakı Trampın azərbaycanlı dostlarından istifadə edərək Ağ Evin yeni sahibinə və ya onun administrasiyasındakı vəzifə sahiblərinə lazımi mesajlar göndərsin. Elə etmək lazımdır ki, Tramp ən azı xəritədə Azərbaycanın yerini bilsin və hərdən bir xəritənin bu hissəsinə diqqət yetirsin ki, ölkəmizlə əməkdaşlıqdan necə faydalanmaq olar, bu barədə düşünməyə bir neçə dəqiqə vaxt ayırsın. Ancaq bunun məhz belə olacağını iddia etmək çətindir. Çünki Trampın məşğul olduğu və məşğul olacağı mövzular rəngarəngdir və problemləri də çoxdur. Ona görə də belə şəraitdə bizim mövzularımız bir neçə ildən sonra onun administrasiyasının diqqətini çəkə bilər. Buna baxmayaraq, işğala son qoymaq üçün hərbi əməliyyatlara növbəti dəfə başlamamız Tramp administrasiyasını bölgəyə və Dağlıq Qarabağ münaqişəsinə diqqət ayırmağa vadar edə bilər”.

**Politoloq Trampın azərbaycanlı dostlarının olmasının xeyrimizə olduğunu düşünür:** “Trampın azərbaycanlı dostlarının varlığı xeyrimizədir. Doğrudur, hazırda Tramp prezidentdir və Ağ Ev sahibinin boş vaxt tapıb azərbaycanlı dostları ilə görüşməsi problematikdir. Ancaq Tramp Araz və Emin Ağalarovu və ya eyni masada otuzdurduğu Mübariz Mənsimovu unuda bilməz. Araz və Emin Ağalarovlar Trampın Rusiyadakı əsas dostlarıdır.

Araz Ağalarov Trampla birgə Moskvada ortaq layihələr həyata keçirmək istəyirdi, ancaq o zaman bu alınmadı. Bunun əvəzinə Anar Məmmədov Tramp ailəsini Azərbaycana cəlb edə bildi və Bakıda Trampın markasını daşıyan əzəmətli bina inşa edildi. Bu məqsədlə Trampın qızı və hazırda onun əsas köməkçilərindən biri İvanka Bakıya gəldi. Türkiyədəki azərbaycanlı iş adamı Mübariz Mənsimovun nə zaman Trampla dost olması isə düzü, müəmmalı qaldı. Ümumiyyətlə, Mübariz Mənsimov iş həyatında gizliliyi qorumağa çalışır. Mübariz Mənsimov vətənsevər insandır. Düşünürəm ki, oliqarxlarımız arasında məhz Mənsimov Amerikadakı dostlarının diqqətini Qarabağ mövzusuna çəkə bilər. Onu da nəzərə almaq lazımdır ki, Tramp prezident seçildikdən sonra Mübariz Mənsimov Amerikada şirkətinin nümayəndəliyini açıb. Bu, andiçmə mərasimindəki nitqində “birinci Amerika” deyən Tramp və onun administrasiyasının da maraqlarına xidmət edən addımdır".

**E.Şahinoğlu hakimiyyətin bu şəxslərə qarşı mövqeyini düzgün saymır:** “Azərbaycan hakimiyyətində paxılların sayı az deyil. Ancaq onlar da anlamalıdırlar ki, başqa dövlətlərin liderləri ilə sıx əlaqələri olan şəxsləri sıxışdırmaq deyil, onlarla əlaqəni gücləndirmək lazımdır ki, dövlətimizin maraqları həmin bu insanların imkanlarından yararlana bilək. Məsələn, şübhə etmirəm ki, Rusiya prezident Trampla əlaqə qurulmasında Araz Ağalarovun imkanlarından yararlanıb. Çünki Tramp prezident seçildikdən sonra Emin Ağalarov Amerikaya gedərək onunla görüşüb. Bu, andiçmədən əvvəl olub. Emin Ağalarovun Trampla niyə görüşdüyünə dair məlumat yoxdur. Mənim ehtimalım belədir ki, Emin Trampı təbrik etməklə yanaşı, Putinin hansısa mesajını da onun diqqətinə çatdıra bilərdi. Bu imkanlardan biz də istifadə etməliyik. Şəxsi ambisiyalardan çıxış edən məmurlar ancaq özlərini düşünürlər, halbuki fəaliyyətlərinin başında Azərbaycanın maraqlarına xidmət dayanmalıdır. Bu isə ilk növbədə ”necə edək ki, Dağlıq Qarabağ münaqişəsinin həllini yaxınlaşdıraq" sualını aktuallaşdırmalıdır".

❑ **Cavanşir ABBASLI**

# Putini güclü edən səbəb - sərvəti, yoxsa...

## Fərəc Quliyev: “Sadəcə, Putin tarix üçün yaşamaq və tarixdə qalmaq istəyir, avantürst şüarları ilə dünyaya meydan oxuyur”

## Əhəd Məmmədli: “O, xalqdan güc alır, ruslar ac imperiya olmalarını tox ölkə olmaqdan üstün tuturlar”



**Rusiya prezidenti Vladimir Putin dünyanın daim müzakirə etdiyi şəxslər arasında ön sırada dayanır. Yürütdüyü xarici siyasətlə yanaşı, Kreml rəhbəri həm də sərvəti ilə bağlı daha çox müzakirə obyekti olur.**

Son olaraq, Putinin varidatı ilə bağlı şok rəqəmlər açıqlanıb. Strateq.az saytının dərc etdiyi geniş tərcümə yazısında hətta şimal qonşumuzun dövlət başçısının 200 milyarda yaxın sərvətə sahib olduğu deyilir. Zaman-zaman onun milyarder olması barədə çoxsaylı xəbərlər yayılıb. Hər yeni xəbərdə isə Rusiya rəhbərinin sahib olduğu məbləğ daha artıq göstərilir. Bu isə onun illər getdikcə sərvətinin artdığını göstərir.

Bəzi ekspertlər Putinin dünyaya söz keçirməsinin, xalq arasında nüfuzunun olmasının, ölkəsinə qarşı 3 ildir sanksiyaların tətbiq olunmasına baxmayaraq, nəinki ayaqda qalmasını, hətta dünyaya meydan oxumasının onun sərvətindən doğduğunu düşünürlər. Reallıqdan çıxış etsək, hazırda Kreml rəhbərini xarici siyasətdə dünyanın əsas liderlərindən biri saymaq olar, bəlkə də birincidir...

Bu yaxınlarda Böyük Britaniyanın baş naziri Tereza Mey da Trampı Putinlə ehtiyatlı davranmağa çağırmışdı.

Maraqlıdır, Putunu güclü edən nədir; sərvətləri, yoxsa siyasəti?

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev Putinin “yeni Pyotr” olduğunu düşünmür:** “Pyotr Rusiya tarixində yeni səhifə açdığı üçün o şəxs olmuşdu. Rusiyanı yaxşı mənada dəyişmişdi. Amma Putin ölkəsini müttəfiqsiz qoyub. Demək olar hamı ilə düşmən vəziyyətindədir. Ona yaxın qardaş ölkə sayılan Ukrayna ilə nəinki münasibətlər pozulub, hətta düşmən münasibət yaranıb. Okeandan okeana gedən Rusiya artıq keçmiş SSRİ məkanına sığınıb. Artıq şimal qonşumuz bölünmə təhlükəsi ilə üzləşib. Putin ağıllı və Rusiyanı dəyişən siyasətçi kimi dəyərləndirmirəm. Sadəcə, Putin tarix üçün yaşamaq və tarixdə qalmaq istəyir. Avantürst şüarları ilə dünyaya meydan oxuyur. Amma gücü istəklərinə uyğun deyil. Belə şəxslər pulpərəst olurlar. Deyilən rəqəmdə sərvəti varsa, ondan açıq şəkildə necə istifadə edəcəyi şübhəlidir. Ağıllı siyasətçi bu sərvətdən ölkəsinin böhrandan çıxması üçün istifadə edər. Putin dünyanın dediyi kimi, böyük siyasətçi deyil. Böyük imkanları olan dövləti iflic vəziyyətinə salıb. İndiki halda o özü ilə bərabər rus xalqını cəhənnəmə sürükləyir”.

**“Sivilizasiyalar və konfliktlər” Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli hesab edir ki, Putini güclü edən xalqdır:** “Putini güclü edən ilk öncə rusların düşüncəsində SSRİ kimi Rusiya Federasiyasının dağılmasının qarşısını alması, Çeçenistanın yenidən Rusiyanın tərkibinə qaytarması, Yeltsin dövründə siyasi, iqtisadi qeyri-sabitliyin qarşısını alması, rusların sosial vəziyyətini daha da yaxşılaşdırmasıdır. Düzdü, burada neft və qazın qiymətlərinin bir neçə il müddətdə yüksək olması da Putinə kömək etdi. Üstəlik, Avropanın rus qazından asılı vəziyyətə salınmasını da unutmamalıyıq. Bunların hamısı Putin dönəmində oldu. Və ən əsası Gürcüstan və Ukrayna üzərində kiçik müharibə qələbələri, Krımın ilhaqı və Suriyaya müdaxilə Putin populyarlığının zirvə nöqtəsi oldu. Çünki Putin rusları inandırdı ki, biz yenə SSRİ kimi böyük oluruq, ona görə Amerika və Avropa bizə qarşıdır. Və sanksiyalara baxmayaraq, rus xalqı Putinin ətrafında sıx birləşdi. Həmçinin Rusiyada qeyri-neft, qeyri-qaz sektoru, kənd təsərrüfatı oldu ki, kənd təsərrüfatı oldu üçün ruslar ayaqda qala bildi, rublun ucuzlaşmasının qarşısı alındı. Ruslar da elə millətdir ki, onları ac saxla, amma böyük olduqlarını unutdurma. Bu kifayətdir ki, o xalq sənin arxasınca getsin. Buna böyük rus şovinizmi deyirlər. Heç şübhəsiz Putin güclü siyasətçidir. Amma tam demək də olmaz ki, gücünü xalqdan alır. Rusiyada seçkilər tam şəffaf keçirilmir. Putin keçmiş kəşfiyyatçıdır və öz xalqının psixologiyasını, mentalitetini çox gözəl bilir. Və bundan məharətlə istifadə edir. Rusiyada korrupsiya yüksək səviyyədədir, seçkilərdə kifayət qədər saxtakarlıq var, amma rus xalqı bütün bunları Putinə bağışlayır. Çünki rus xalqına Krım, Donbas, Qafqaz, Suriya, Amerikaya əlcək atmaq lazımdır”.

**Politoloq Rusiyanı güclü edən digər amillərə də toxundu:** “Rusiyanı güclü edən digər vasitələrdən biri də onun əsrlərlə dövlət, imperiya ənənələrinin olmasıdır. Müasir dönəmdə isə Rusiyanı güclü edən bu ölkənin qaz, neft yataqları və əsas da dünyada ikinci nüvə ölkəsi olmasıdır. Rusiyanın super nüvə potensiali olmasaydı, bu dövləti çoxdan Yuqoslaviya, İraqın halına salardılar. Ümumiyyətlə, tarixə nəzər yetirsək, İvan Qroznı dönəmindən SSRİ və bu günlərimizə qədər rus xalqı heç vaxt yaxşı yaşamayıb. Bəli, imperiya olublar, amma sosial, iqtisadi cəhətdən həmişə Qərbdən geri qalıblar. Ona görə ruslar belə durumlara öyrəşiblər. Tox qalmaq üçün bir "samoqon" şüşəsi və donuz əti ruslara kifayətdir. Onlar üçün əsas Krımın onlarda olmasıdır. Yəni ac imperiya olmalarını tox ölkə olmaqdan daha üstün tuturlar. Dünya dövlətləri Putindən daha çox Rusiyanın nüvə arsenalından çəkinirlər. Çünki ruslar həmişə açıq bəyan ediblər, çox üstümüzə gəlsəniz nüvə düyməsini basarıq. Təbii, Putinin şahin tipli siyasi lider olması da Qərbi çəkindirir".

**Müsahibimiz Putinin milyardları barədə də danışdı:** “Putinin səltənətinin 200 milyard olması haqda dəqiq məlumatım yoxdur, amma Putin qeyri-rəsmi dünyanın ən varlı adamı sayılır. Bu adamın qızları Qərbdə yaşayır. Bank hesabları, mülkləri Qərb ölkələrində yerləşir. Və bu artıq heç kəsə sirr deyil. Sirr odur ki, indiyə qədər Qərb ölkələri şəxsən Putin ailəsinə qarşı heç bir sanksiya tətbiq etməyiblər. Təbii, bu da Putinin gücündən xəbər verir. Lakin əsas gücü xalqın dəstəyi və dünyanın ikinci nüvə ölkəsinin başında durmasıdır”.

❑ **Cavanşir ABBASLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 21 (6635) 31 yanvar 2017




# Tramp Putinlə Qarabağdan danışıbmı, Ağ Evin sahibi də "açar Rusiyadadır" deyəcəkmi?

## ABŞ-ın postsovet məkanındakı münaqişə ocaqlarının söndürülməsi missiyasını Kremlə həvalə edəcəyi inandırıcı görünmür; ancaq təhlilçilər iki paytaxtın lideri arasındakı telefon danışığında Qarabağ məsələsinin prioritetlər sırasında olduğunu da zənn etmirlər...

**Ağ Evin yeni sahibi Donald Trampın prezidentlik səlahiyyətləri dövründə dünyada nələrin baş verəcəyi, Vaşinqton-Rusiya münasibətlərinin necə olacağı barədə müxtəlif gözləntilər var. Bu mənada dünyanın iki əsas güc mərkəzinin rəhbərlərinin, Tramp və Putinin telefon danışığı gündəmin əsas müzakirə mövzularındandır.**




ABŞ prezidentinin səlahiyyətlərinin 10-cu günündə Kreml rəhbəri ilə əlaqə yaratması barədə xəbər verilsə də, danışıqların detalları hələ ki tam açıqlanmayıb. Bu mənada müzakirələr zamanı Cənubi Qafqaz, Azərbaycan və Qarabağ münaqişəsindən də bəhs olunub-olunmadığı bizləri xüsusilə maraqlandırır. Düzdür, hələ inauqurasiyadan öncə amerikalı ekspertlər Qarabağ məsələsinin Tramp üçün prioritet olmayacağı barədə proqnozlar verirdilər. Ancaq Rusiyanın davranışlarından görünən budur ki, Moskva postsovet məkanındakı münaqişə zonalarında şəriksiz dominantlıq etmək siyasətinə üstünlük verməyə çalışır. Elə Rusiya XİN başçısı Sergey Lavrovun "Qarabağ Azərbaycanın daxili məsələsi deyil" məzmunlu açıqlamasının da məntiqi yekunu budur. Lakin ABŞ üç həmsədr ölkədən biridir və mümkün deyil ki, o da Almaniya kansleri kimi "Qarabağın açarı Rusiyadadır" mövqeyindən çıxış etsin. Burada həm də supergücün imicindən söhbət gedir.

**Bugünlərdə Bakıda səfərdə olan Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harris "özümüzü Azərbaycanın dostu və tərəfdaşı hesab edirik",- deyə bildirib. Onun sözlərinə görə, Azərbaycana gələn 8 nəfərlik nümayəndə heyəti yeni administrasiyanın təmsilçiləridir.** "Ümid edirik ki, bu, Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə açacaq. Həmçinin səfərimiz İsrailin baş naziri Benyamin Netanyahunun Azərbaycana səfərindən sonra baş tutub. Biz İsraillə Azərbaycan və ABŞ arasındakı münasibətləri yüksək qiymətləndiririk və vacib hesab edirik. Azərbaycan ABŞ üçün vacib və dost ölkədir" (APA). D. Harris Azərbaycan prezidenti İlham Əliyevlə keçirdiyi görüşə toxunaraq, qeyd edib ki, görüşdə ABŞ-Azərbaycan, İsrail-Azərbaycan münasibətləri, regional məsələlər, Qarabağ münaqişəsi, Rusiya və İranla münasibətlər müzakirə edilib. Hər halda, ABŞ Ermənistan haqqında eyni mövqedən çıxış etmir və işğalçı ölkənin Rusiyanın forpostu olduğunu gözəl anlayır. "Azərbaycanın yaxın dostu və müttəfiqi" həm də onu bilir ki, Bakı üçün ərazi məsələsi bir saylı məsələdir və burada güzəşt ola bilməz. Deməli, Vaşinqton istəsə belə, Qarabağın taleyini Rusiyaya həvalə edə bilməz və əgər bu, baş versə, münasibətlərdə çat yarana bilər.

Düzdür, rusiyalı ekspertlər ABŞ-ın Cənubi Qafqazda fəallığının azalacağını ehtimal edirlər. Məsələn, Rusiya EA yanında Beynəlxalq Təhlükəsizlik Mərkəzinin rəhbəri Aleksey Arbatov "indiki administrasiya bölgə haqda az məlumatlıdır və burada baş verən hadisələrə tamamilə laqeyddir. Bundan dolayı Vaşinqton istənilən aktivlikdən, xüsusilə də sülhməramlı fəallıqdan uzaq duracaq. Əgər Krım-Ukrayna məsələsi, hər halda, Ağ Evdən ötrü prinsipiallığını saxlayacaqsa, Cənubi Qafqaz məsələsi uzaq bir yeşiyə qoyulacaq. Hətta bu bölgədə müharibə başlasa, bu, Trampın deyil, Avropanın başağrısı olacaq", - deyə bildirib. Ancaq **Moskvadakı Siyasi İnformasiyalar Mərkəzinin direktoru Aleksey Muxin** əksinə, əmindir ki, Trampın dönəmində ABŞ-ın xarici siyasəti daha sərt və məqsədyönlü olacaq: "Tamamilə aydındır ki, Birləşmiş Ştatlar Güney Qafqazda daha fəal rol oynayacaq. Ənənəvi olaraq, anqlo-sakson dünyası Cənubi Qafqazdan Rusiyaya təsir eləmək üçün istifadə edir. Yaxın gələcəkdə Vaşinqton bu kursu davam etdirəcək". Beynəlxalq Məsələlər üzrə Rusiya Şurasının proqram direktoru İvan Timofeyev isə düşünür ki, əgər ilk mərhələlərdə Rusiya və ABŞ vasitəçilər kimi birgə hərəkət edirdilərsə, daha sonra Qarabağ üzrə uzlaşma bir qədər pozulub. Ancaq indi koordinasiyanı bərpa etmək lazımdır.

Göründüyü kimi, müxtəlif yanaşmalar var. Rusiya çox istərdi ki, ABŞ Qafqazla bağlı fəaliyyətini ən azı onunla koordinasiya etsin. Elə rus ekspertlərin şərhləri də Kremlin mesajını çatdırmaq niyyəti ola bilər. Lakin Moskvanın istək və arzularının Ağ Evdə necə qarşılanacağı maraq doğurur. Azərbaycanın siyasi analitiklərinin də məsələ ilə bağlı özəl yanaşmaları var.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a dedi ki, Rusiya və ABŞ prezidenti arasında telefon danışığının detalları açıqlansa da, söhbətin tam mahiyyəti aydın deyil:** "Çox güman ki, Putin və Tramp əsas diqqəti Suriya məsələsinə yönəldiblər. İndiki şəraitdə bu, daha çox inandırıcı görünür. Reallıq ondan ibarətdir ki, Qarabağ məsələsi bu gün ABŞ və Rusiya üçün prioritet deyil. Əlbəttə, daha çox ABŞ üçün. Trampın prezident kürsüsünə oturduqdan sonra qəbul etdiyi qərarlar ABŞ prezidentinin mədəniyyətlərarası dialoqda maraqlı olmadığını, ABŞ-ın ənənəvi strategiyasını - sivilizasiyalararası qarşıdurma vasitəsilə üstün güc mövqeyini qoruyub saxlamağa çalışacağını nümayiş etdirir. Lakin Tramp şübhəsiz ki, bütün müsəlman dünyasını qarşısına almaq niyyətində deyil. İndiki mərhələdə daha çox "radikal İslam"a qarşı savaşın şahidi olacağıq. Ola bilsin ki, Vaşinqton atdığı addımların bütövlükdə İslama qarşı olmadığını göründülmək üçün azsaylı sekulyar və modern idarəçilik yolu seçən ölkələrlə əməkdaşlığa üstünlük versin. Məhz bu məqam bizim üçün faydalı ola bilər". O ki qaldı Tramp-Putin münasibətlərinin Dağlıq Qarabağ münaqişəsinin təsirinə, bu barədə konkret fikir söyləmək çox çətindir: "İndiki halda Trampla Putinin Qarabağla bağlı nə isə planlaşdırdıqlarını iddia etmək mümkün deyil. Bunu əsaslandıran səbəb də yoxdur".

**Politoloq Şahin Cəfərli də Ağ Ev administrasiyasının prioritetləri sırasında Qarabağ, yaxud Qafqaz məsələsinin olduğunu güman etmir:** "Kreml və Ağ Evdən verilən açıqlamalar göstərir ki, Tramp və Putin arasındakı telefon danışığında Qafqaz mövzusu gündəmə gəlməyib. Postsovet məkanı ilə bağlı yalnız Ukrayna məsələsinə diqqət yetirilib ki, bu da təbiidir, çünki iki ölkə arasındakı problemlərin əsas hissəsi məhz Ukraynadan qaynaqlanır. Məlum olduğu kimi, ABŞ Rusiyanın Krımı ilhaq etməsi və Donbasda separatizmə dəstək verməsi ilə əlaqədar Obama dövründə bu ölkəyə qarşı sanksiyalar tətbiq edib. ABŞ-ın yeni administrasiyası üçün postsovet məkanı prioritet deyil. Tramp və onun komandası ABŞ-ın milli təhlükəsizliyi baxımından 2 böyük təhlükə olduğunu düşünürlər: "radikal islam" və Çin. Onlar u iki məsələdə Rusiyanın dəstəyini almaq üçün bu ölkə ilə münasibətləri yaxşılaşdırmaq niyyətindədirlər. Düşünürlər ki, Rusiyanı Çinə qarşı ABŞ-la əməkdaşlığa cəlb etmək zəruridir, bu mümkün olmasa belə, ən azı, bu 2 gücün ABŞ-a qarşı birləşməsinə yol vermək olmaz. "Radikal islam" - yəni, terrorçuluqla mübarizə isə iki ölkənin anlaşa biləcəyi bir sahədir, çünki bu, ümumi təhdiddir. Çox güman ki, biz yaxın həftələrdə Suriya münaqişəsinin həli də daxil olmaqla, terrorçuluqla mübarizə sahəsində ABŞ-Rusiya dialoqunun bərpa olunmasını görəcəyik".

**Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə, Ş.Cəfərli Tramp hökumətinin bu məsələdə Obama hökumətindən ciddi şəkildə fərqlənəcək siyasət aparacağına şübhə etdiyini vurğuladı:** "Böyük ehtimalla Vaşinqton münaqişənin həlli prosesində Rusiyanın dominantlığının qalmasına etiraz etməyəcək. Tramp hazırkı mərhələdə çalışacaq ki, Rusiya ilə münasibətlərdə yeni problemlər yaranmasın. Ona görə də mən ABŞ-ın Qarabağ məsələsinin həllində fəallaşmasını və nizamlanmanı Rusiyanın inhisarından çıxarmağa cəhd etməsini gözləmirəm. Konqres faktoru və öz partiyasının daxilində ciddi etirazlar olmasaydı, Tramp yəqin ki, Ukrayna məsələsinə də diqqət yetirməyəcəkdi və Rusiyaya qarşı tətbiq olunmuş sanksiyaları ləğv edəcəkdi. Konqres və respublikaçıların aparıcı simaları onu hələ ki tormozlayır".

**Ancaq politoloq hesab edir ki, Tramp və Putin arasında anlaşma baş tutmaya da bilər:** "Əslində yaxın tarixə nəzər salsaq, görərik ki, SSRİ-nin dağılmasından bəri, Ronald Reyqandan başlayaraq, bütün ABŞ prezidentləri - böyük Corc Buş, Bill Klinton, kiçik Corc Buş və Barak Obama hakimiyyətə gəldikdən dərhal sonra Moskva ilə dialoqa və əməkdaşlığa başlayıblar. İlk vaxtlarda bu əməkdaşlıqda irəliləyişlər də əldə olunub, lakin sonda bütün ABŞ prezidentləri Rusiya ilə əməkdaşlıqdan məyus olublar. Donald Tramp dövründə də eyni halın təkrarlanması mümkündür. ABŞ prezidenti özü də bunu istisna etməyib. Əgər belə olsa, biz ABŞ-Rusiya rəqabətinin yeni mərhələsini izləyəcəyik və Trampın şəxsi keyfiyyətlərini nəzərə alaraq, bu rəqabətin əvvəlkilərdən daha kəskin olacağını gözləmək olar".

Bu arada Azərbaycanın cəbhə bölgəsində azad olunmuş ərazilərdə, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinə qərar verməsi, Sülh Platformasına yeni şəxslərin qoşulması, hətta ermənilərin işğalı və Sərkisyan iqtidarını lənətləməsi Bakının önə çıxmasını şərtləndirən amillərdəndir. Vasitəçilər də on illərdir davam edən münaqişədə yeni situasiyanın yaranmasının fərqindədirlər. Amma son illərə qədər Rusiya və ABŞ digər məsələlərdə anlaşa bilməsələr də, Qarabağ məsələsində çox asanlıqla "dil tapıblar". Lakin Trampın "hansı dildə danışdığı" hələ ki dünyaya, o cümlədən Putinə məlum olmadığı üçün onun postsovet məkanına münasibəti barədə qəti bir söz demək mümkün deyil. Üstəlik, bəzi ekspertlər Trampın Rusiyanı parçalamaq siyasəti yürüdəcəyini də güman edirlər.

Hər halda, ABŞ-ın postsovet məkanındakı münaqişə ocaqlarının söndürülməsi missiyasını Kremlə həvalə edəcəyini gözləmək olmaz. Çünki siyasətə biznesdən gəlmiş Tramp da yaxşı bilir ki, bu münaqişə ocaqlarını alovlandıran, odun üstünə su yox, benzin tökən, nəticədə hegemonluğunu saxlamağa, silah bazarını genişləndirməyə çalışan əsas qüvvə elə "vasitəçi" Rusiyanın özüdür...

YENİ MÜSAVAT
N 21 (6635) 31 yanvar 2017

**Ölkədə əhalinin qiymət artımlarından narazılığının artdığı, məcburi köçkünlərin son günlər etirazlarının müşahidə edildiyi bir dövrdə bir sıra iqtidar deputatları çıxışlarında xalqda narazılığı daha da artıran ifadələrə yol verirlər. Məsələn, biri deyir "işdən sonra fəhləlik edin", biri deyir "ayağınızı yorğanınza görə uzadın", o biri deyir "hər il bir paltar almayın, hər toya getməyin", bir başqası etiraz aksiyası keçirən məcburi köçkünləri "narkoman" adlandırır.**

# Xalqı qəzəbləndirən deputatların susdurmağın qanuni yolu tapılıb

## "Deputatların etik davranış qaydaları haqqında" qanun hazırlanır; **müxalifət funksioneri:** "İnsanların heysiyyəti ilə oynayan..."

**Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli** isə bu məsələdə "rekordçudur". Deməli olar ki, ayda bir dəfə ya Milli Məclisdə çıxışında, ya da mediaya açıqlamasında elə ifadələr, cümlələr işlədir ki, ölkə bir-birinə dəyir, insanlar onu və onun simasında bütöv hökuməti qınayır. Hadı Rəcəblinin son belə açıqlaması keçən həftə məcburi köçkünlər barədə oldu. Məcburi köçkünlərin yataqxanalardakı otaqlarında "plitka"nı yandırıb pəncərəni açıq qoyduqlarını bildirdi və onların bir qisminin güzəştlərdən məhrum edilməsinə haqq qazandırdı. Deputatın belə bir qıcıq yaradan açıqlamasına etirazlar bütün sosial şəbəkəni, medianı bürüdü və narazılıqlar hələ də davam edir. Çoxları Hadı Rəcəblinin cəzalandırılmasını Milli Məclisin sədrindən xahiş edir.

Qeyd edilir ki, bu cür deputatlar və məmurlar komfort şəraitdə oturub arxayın şəkildə nə gəldi danışırlar. İnsanların əsəblərini tarıma çəkən, əhalini dövlətdən narazı salan, qıcıqlandıran çıxışlar edirlər. İqtidara əslində daha çox təhlükə məhz bu cür ifadələrinə diqqət edə bilməyən deputatlardan gəlir. Belə ki, onların hansısa bir düşünülməmiş açıqlaması insanların qəzəbinə səbəb olur. .

Görünür, elə bu səbəbdəndir ki, Azərbaycanda "Deputatların etik davranış qaydalar haqqında" qanun hazırlanır. Qanun Milli Məclisin yaz sessiyasında müzakirəyə çıxarılacaq və böyük ehtimalla qəbul ediləcək. Sənəddə dövlət qulluqçularında olduğu kimi, deputatın da davranışında, fəaliyyətində, bəyanat və çıxışlarında etik normalar tənzimlənəcək və buna hüquqi müstəvidə yanaşılacaq. Bəlkə bundan sonra danışığını bilməyən, hər dəfə ağzını açanda ictimai narazılıq yaradan deputatlar sözlərinə çəki-düzən verəcəklər.



**Deputat Fərəc Quliyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, deputatlar seçilmiş insanlardır, amma o da faktdır bəzən bəzi deputatlar gerçəkdən tutduğu məqama yaraşmayan bəyanatlarla, fikirlərlə çıxış edirlər, xoşagəlməz hallara yol verirlər və bütün bunlar da ictimaiyyətdə ciddi narazılıq yaradır. Ona görə də "Deputatların etik davranış qaydaları" adlı qanun layihəsinin ortaya çıxması zərurətdən doğub.

**AMİP katibi Elşən Mustafayev isə bu barədə açıqlamasında bildirdi ki, neftin qiyməti düşəndən sonra yaranan iqtisadi böhran və maliyyə problemləri, xüsusən də Tarif Şurasının son qərarları göstərdi ki, hökumətdə və parlamentdə yarıtmaz insanlar kifayət qədərdir. Məhz belə məmurlar və deputatlar yanlış addımları, çıxışları ilə narazılığı körükləyirlər:** "Artıq sübuta yetib ki, parlament üzvlərinin bir çoxu deputat mandatı daşımağa layiq deyillər. Hələ bu günə kimi heç bir qurum tərəfindən bu çətinlikdən çıxmaq üçün nəinki real iqtisadi təkliflər paketi ortaya qoyulub, heç vəziyyətə uyğun adi işlər belə görülməyib. Azərbaycanın bugünkü duruma düşməsinin birinci günahkarları məhz elə bu cür deputatlar və məmurlardır. Təsəvvür edin ki, Milli Məclisin Sosial siyasət komitəsinin sədri insanların sosial problemlərinin həlli ilə bağlı təkliflər vermək əvəzinə, sosial narazılıq yaradan açıqlamalar verir. Deputatları insanların heysiyyəti ilə oynayan açıqlamalar verməkdən çəkindirmək üçün addımlar atılmalıdır".

**Ümid Partiyası sədrinin müavini Tamilla Qulami isə bildirdi ki, bir sıra deputatlar və məmurlar var ki, gerçəkdən də həm xalq, həm də bu hakimiyyətin özü üçün təhlükədirlər. Belə deputatlar və məmurlar hakimiyyətin də ciddi probleminə çevrilməkdədir:** "Hökumətə normal təkliflər vermək, hökumətdən yaranmış vəziyyətin səbəbini tələb etmək, əslində bununla həm də hakimiyyətə də kömək etmək əvəzinə, xalqda narazılığı artıran açıqlamalar verirlər.

Həqiqətən də son zamanlar ölkədə baş verən sosial-iqtisadi vəziyyətin ağırlaşdığı şəraitdə deputatların, məmurların əhalinin bu sahədə məlumatlandırması əvəzinə, əhalidə daha da qıcıq yaradacaq fikirlər səsləndirməsi təəssüf doğurur. Bu millət vəkilləri o şəxslərdir ki, özləri dediklərinin əksinə bir həyat tərzi yaşayır, əvəzində xalqı daha çətin şəraitdə yaşamağa, onsuz da kasıb olan cəmiyyəti nədəsə qənaət etməyə çağırır. Bu isə haqlı olaraq əhalidə ciddi narahatlıq və narazılıq yaradır. Bu cür deputatların açıqlamaları bütöv müxalifət partiyalarının bəlkə də aylarla hakimiyyət lehinə apardıqları təbliğatdan daha ciddi anti-hakimiyyət ovqatı yaradır cəmiyyətdə. İnsanları aşağılayan açıqlamalar verən deputatların cəzalandırılması mexanizmi qanunvericilikdə əksini tapmalıdır".

❑ **E.SEYİDAĞA**

# Məcburi köçkün yataqxanalarında sayğaclar qurulur

## Kommunal xidmət göstərən dövlət qurumları narazı məcburi köçkünləri necə razı salıb?



**Ölkə başçısının müvafiq fərmanından sonra kommunal xidmət göstərən dövlət qurumları məcburi köçkün ailələrinin yaşayış yerlərində sayğaclaşma prosesinə başlayıblar. Məlum olduğu kimi, fərmanın icrasına başlanılan ilk günlər məcburi köçkünlərin bir qismi sayğacların quraşdırılmasına qarşı çıxıb, buna öz etirazlarını bildirirdilər. Öyrəndik ki, hazırda durum əvvəlki kimi deyil və məcburi köçkünlərlə bu istiqamətdə söhbətlər aparılır, sərəncamın mahiyyəti onlara aydınlaşdırılır.**

**"Azəriqaz" İstehsalat Birliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbalayev** "Yeni Müsavat"a bildirib ki, sərəncama uyğun olaraq onların əməkdaşları sayğacların quraşdırılması prosesini davam etdirirlər: "Fərmandan irəli gələn işlərin icrasına başlanılıb. Belə ki, hər bir məcburi köçkün üçün fərdi qaydada sayğac quraşdırılması işi həyata keçirilir. Əvvəllər ailənin hər bir üzvü üçün limit ayrılırdı. Bu limit qış aylarında 45 kubmetr, yaz və payız aylarında 35 kubmetr, yay aylarında isə 25 kubmetr idi. Artıq cənab prezidentin imzaladığı fərmana uyğun olaraq, hər bir məcburi köçkün üçün 36 manat məbləğində vahid aylıq müavinət təyin olunub. "Azəriqaz" İstehsalat Birliyi də bu fərmandan irəli gələn işlərin icrasını həyata keçirir".

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev də bu istiqamət üzrə işlərin qaydasında getdiyini bildirib:** "Hazırda Azərbaycan Texniki Universitetinin yataqxanalarında, Nərimanov, Binəqədi, Səbayel, Nəsimi, Xətai, Nizami rayonlarının ərazisində yüksək səviyyədə sayğaclaşma işləri davam etdirilir. Heç bir narazılıq da yoxdur. Məcburi köçkünlər normal şəkildə əməkdaşlarımızı dinləyirlər və onlar da işlərini aparırlar. Narazı olanların məsələsi isə yerində araşdırılır. Bildiyiniz kimi, biz bu məsələ ilə bağlı qərargah da yaratmışıq. Həmin qərargah 24 saat ərzində fəaliyyət göstərir. Ora bütün rayonlardan məsul əməkdaşlarımız cəlb olunub. Bu əməkdaşlar gün ərzində görülən işlərin hesabatını verirlər. İlk əvvəl məcburi köçkünlər arasında bir qədər narazılıq olsa da, hazırda sayğac quraşdırılmasında heç bir problem yoxdur. Məcburi köçkünlərin hansı tələbləri, istəkləri varsa, əməkdaşlarımız onları dinləyərək bu məsələləri qeyd edirlər. Artıq son iki gün ərzində 3500-ə qədər sayğac quraşdırılıb. Əvvəllər hər bir məcburi köçkün üçün 150 kilovat-saat limit təyin olunmuşdu. Cənab prezidentin fərmanından sonra bizim qurum tərəfindən operativ qaydada bu limitlər dayandırıldı. Yəni bizim sistem elektron olaraq yeni qaydaya tam hazırdır".

**"Azərsu" ASC-nin ictimaiyyətlə əlaqələr departamentinin rəisi Anar Cəbrayıllı da "Yeni Müsavat"a bildirib ki, sayğac qurulması işləri davam etdirilir:** "Artıq bizim qurumda qərargah yaradılıb. Bu qərargah məcburi köçkünlərin yaşadıqları yerlərdə onların qeydiyyata alınmasına və sayğaclaşması işlərinə rəhbərlik edəcək. İndiyədək Sabunçu rayonunun Ramana qəsəbəsində məcburi köçkün yataqxanalarına 400-dən artıq sayğac quraşdırmışıq. Bu həftə ərzində orada sayğaclaşma prosesini tam olaraq başa çatdıracağıq. Ümumiyyətlə, bizim ilkin olaraq abonent bazamızda təhlillər aparılıb. Məlum olub ki, təqribən 92 min qeydiyyatda olan məcburi köçkünümüz var ki, onlar sayğacla təmin olunmayıblar. Yəni onlarla hesabat indiyə qədər ailə üzvlərinin sayına görə aparılıb. Məqsədimiz odur ki, məcburi köçkünlərin hamısını sayğacla təmin edək ki, dəqiq uçot aparılsın. Fərmana qədər bir nəfər ailə üzvünə görə 5 kubmetr limit verilirdi".

Xatırladaq ki, prezident İlham Əliyev yanvarın 23-də "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" fərman imzalayıb. Həmin sənədə əsasən, məcburi köçkünlərə, onlara bərabər tutulan şəxslərə yemək xərci müavinəti, kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər dayandırılır. Bunun əvəzinə onlara hər ay 36 manat məbləğində vahid aylıq müavinət veriləcək.

❑ **Əli RAİS**

# Tramp qaçqın və miqrant məsələsinə görə Amerikanı qaynadır

## Böyük şirkətlər ona qarşı çıxır, ortada xaotik durum var, prezident isə geri çəkilmək fikrində deyil...

**Prezident Trampın 7 müsəlman ölkəsinin vətəndaşlarına qarşı tətbiq etdiyi viza qadağasından sonra ABŞ-da kritik proseslər baş verir. Ölkənin demək olar ki, hər yerində etiraz aksiyalarının başladığı bir vaxtda, içlərində Kaliforniya, Pensilvaniya və Nyu Yorkun da olduğu 16 ştatın baş prokurorları ABŞ prezidenti Trampın viza qadağasına qarşı ortaq bir bəyanat yayıb. Prokurorlar yaydıqları bəyanatda Trampın bu qərarını pisləyiblər. ABŞ prezidenti ölkədə xaos yaratmaqda ittiham olunub.**

Bəyanatda Trampın səs aldığı İova və Penselvaniya kimi ştatların da olması diqqət çəkib. Amerikanın məşhur kofe firması "Starbucks" və ev kirayəsi şəbəkəsi "AirBn" prezident Donald Trampın mühacir və qaçqınlarla bağlı qərarlarına qarşı hərəkətə keçib. Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, Starbucks suriyalı qaçqınların ABŞ-a girişini təxirə salan və 7 müsəlman ölkəsindən vətəndaşların ölkəyə girişini 90 günlüyə qadağan edən qərarnamənin ardınca bəyan edib ki, fəaliyyət göstərdikləri 75 ölkədə 5 il ərzində 10 min mühacirin məşğulluq problemini həll edəcək.

"Starbucks" təmsilçisi Hovard Schultz şirkət əməkdaşlarına göndərdiyi məktbubda yazıb ki, "Amerikan röyası"nın vəd etdiyi dəyərlər artıq sorğulanmağa başlayır. "Starbucks" şirkəti müharibə, şiddət, zülm və ayrı-seçkilikdən qaçanları müdafiə etmək, onları iş yeri ilə təmin etmək üçün cəhdlərini ikiqat artıracaq, eyni zamanda Meksikaya da investisiya qoymağa davam edəcək.

**Evini kirayəyə verənlərlə səyyahları intertnetdə görüşdürən "AirBnb" şirkətinin təmsilçisi Brian Cheski isə deyib ki, ABŞ prezidenti Donald Trampın mübahisə yaradan "ölkəyə giriş qadağası" qərarına qarşı təmsil etdiyi şirkət bu qadağadan əziyyət çəkənləri pulsuz qalacaq yerlə təmin edəcək. Facebook hesabından açıqlama verən Çeski aşağıdakıları deyib:** "3 milyondan çox evimiz var. Qadağadan əziyyət çəkəcək şəxslərə yer tapacağıq".

Şirkət rəsmisi eyni zamanda bu qərardan təsirlənən və qalmağa yeri olmayan hər kəsi şəxsən onun elektron ünvanına məktub yazmağa çağırıb. Eyni zamanda şirkətin təbii fəlakətlərdən zərər görən şəhərlərə yardım çərçivəsində ehtiyatda saxladığı evləri də var. İtaliya zəlzələsində və Şilidəki yanğından bu evlər zərərçəkmişlərə təqdim olunmuşdu. Çeski deyib ki, lazım gəlsə, bu evlər də səyahət qadağasından əziyyət çəkənlərin istifadəsinə veriləcək. ABŞ-ın dünyaya hökm edən texnologiya divləri də respublikaçı prezidentin icraatlarına qarşı çıxdıqlarını açıq şəkildə dilə gətiriblər. Onları buna vadar edən Tramp administrasiyasının sosial şəbəkələrlə bağlı həyata keçirmək istədiyi tədbirlər və İslam ölkələrindən gələn miqrantlara qoyulan qadağalar olub.

ABŞ-ın yeni rəhbərliyi ölkəyə gələnlərin sosial media hesablarını nəzarət altına almaqla bağlı yeni qanun layihəsini hazırlamaq niyyətindədir. ABŞ mətbuatında yer alan məlumatlara əsasən, Ağ Evin siyasət şöbəsinin müdiri Stiven Miller Dövlət Departamenti, Gömrük və Sərhəd Mühafizə Xidməti, Daxili Təhlükəsizlik Xidməti kimi qurumlara prezident Donald Trampın miqrantlarla bağlı verdiyi qərarda olduqca qəti olduğunu çatdırıb.

Bundan başqa, Miller həmin qurumlara kütləvi etirazlara fikir verməməyi, televiziya çıxışlarında qərara qarşı danışan şəxslərə qulaq asmamalarını tövsiyə edib. Stiven Miller ABŞ təhlükəsizlik orqanlarına ölkəyə daxil olmaq istəyən şəxslərdən istifadə etdikləri və baş çəkdikləri bütün internet səhifələri, habelə sosial media hesablarındakı paylaşımlarını, hətta mobil telefonlardakı kontaktlarının siyahısını tələb etməyə imkan verən qanun layihəsi üzərində iş getdiyini bildirib.

Bütün bu olanlar Amerikanın iri texnoloji şirkətlərinin Trampa qarşı vahid cəbhədən çıxış eməsinə gətirib çıxarıb. ABŞ-ın Google, Facebook, Apple, Twitter kimi şirkətlərinin başçıları Donald Trampın müsəlmanların ABŞ-a girişini qadağan edən fərmanlarının yolverilməz olduğu və bunun ABŞ iqtisadiyyatına neqativ təsir göstərəcəyi barədə xəbərdarlıq ediblər. Apple-in baş direktoru Tim Kuk şirkətin Donald Trampın siyasətini dəstəkləmədiyini və yeni qaydaların şamil olunduğu şirkət əməkdaşlarına hər cür yardım edəcəklərini söyləyib. "Apple miqrantlar olmadan nəinki inkişaf və yeni innovasiyaları təqdim edə, hətta mövcud belə ola bilməzdi",- şirkət rəhbəri bildirib. Google şirkəti qadağa qoyulan ölkələrdən olan əməkdaşlarını tez bir zamanda ABŞ-a geri dönməyə, ABŞ-da olanları isə ölkədən çıxmamağa çağırıb.

**"Biz bu fərmanın və onun müddəalarının Google və onun ailə üzvlərinə məhdudiyyət yaradacağından, habelə ABŞ-da yeni istedadların parlamasına əngəl törədəcəyindən narahatlıq hissi keçiririk,"- şirkətin bəyanatında deyilir. Twitter-in baş direktoru Cek Dorsi yazır:** "Prezidentin qəbul etdiyi qərarların humanitar və iqtisadi nəticələri olduqca kədərləndiricidir. Biz həmişə ABŞ-a köçüb gələnlərdən fayda görmüşük".

**Facebook-un təsisçisi Mark Sukerberq isə "ABŞ immiqrantlar ölkəsidir və biz bununla fəxr etməliyik", - deyə yazaraq əlavə edib:** "Bir çoxlarınız kimi mən də prezident Trampın fərmanlarının doğuracağı nəticələrdən olduqca narahatam. Biz yardıma ehtiyacı olan insanlara qapılarımızı açmalıyıq".

"Yeni Müsavat" isə xatırladır ki, ABŞ-da yaşayan miqrantlarla bağlı qərarını həyata keçirmək üçün prezident miqrasiya polisinə daha 10 000 agent işçi və Sərhəd Xidmətinə isə 5 min nəfər işçi əlavə etmək istəyir. Belə ki, onlar qanunsuz miqrantları yaxalamaq və fiziki mənada ölkədən kənarlaşdırmaqla məşğul olurlar. Amma bu barədə qərarı imiqrasya məhkəmələri verir ki, bu da 4-6 ildən az çəkmir.

**Trampın miqrant və qaçqınlarla bağlı qərarının özəti budur:**

*- suriyalı qaçqınlara qeyri-müəyyən vaxta qədər ABŞ-a gəlməyə icazə verməmək;*

*- digər ölkələrdən olan qaçqınlara 120 gün ABŞ-a gəlməyə icazə verməmək;*

*- qaçqınların ölkəyə gəlişi yenidən bərpa olunarsa, bu halda Obamanın 2017-ci il üçün planlaşdırdığı kimi 110.000 nəfərin yox, 50.000 nəfərin gəlişinə icazə vermək;*

*- 30 gün ərzində aşağıdakı müsəlman ölkələrindən olan istənilən immiqrasiyanın qarşısını almaq - İran, İraq, Liviya, Somali, Sudan, Suriya və Yəmən. Bu zaman ərzində hakimiyyət bu ölkə vətəndaşlarının sözügedən terror təşkilatları ilə potensial əlaqələrini araşdıracaq.*

Burda qeyd etmək yerinə düşür ki, söhbət BMT-nin proqramı əsasında qaçqın statusu almış şəxslərdən gedir. Bu proqrama əsasən kim ki ABŞ-a sığınacaq almaq üçün göndərilir, onlar "asylum seekers" adlanır və sözügedən qərarda bundan söhbət getmir.

Xatırladaq ki, bu fərman 7 (İran, İraq, Suriya, Sudan, Liviya, Somali və Yəmən) müsəlman ölkəsindən olan şəxslərin, onların ABŞ-da yaşamaq hüququnu əldə etmələrindən asılı olmayaraq girişini qadağan edir. Qadağan 90 günlüyə nəzərdə tutulsa da, bu müddətin uzanacağı da istisna edilmir.

❑ **Sevinc TELMANQIZI**






# Daha bir REAL funksioneri Baş Prokurorluqda dindirildi

## İran səfirliyi mövqe bildirməyə ehtiyac duymur; hərəkat funksionerinə hansı suallar verilib?

**REAL hərəkatı funksionerlərinin Baş Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsində dindirilmə prosesləri davam edir. Hərəkatın idarə heyətinin üzvü Azər Qasımlının ardınca qurumun icraçı katibi Natiq Cəfərli yanvarın 30-da ifadə verib.**

Bu barədə "Yeni Müsavat"a açıqlamasında N.Cəfərli 2 saat yarımdan çox dindirildiyini bildirib: "İran səfirliyinin nümayəndəsinin REAL-a gəlməsi ilə bağlı suallar oldu. Sualların hər birinə necə vardısa, elə də cavab verdik. Bildirdim ki, bizim xalq və dövlətdən gizli bir məsələmiz yoxdur. Azər Qasımlıya verilən suallar tipində aşağı-yuxarı suallar verildi. Səfirliyin nümayəndəsi ilə görüşün məğzi, hansı mövzuların müzakirə edildiyi barədə suallar idi. Təqribən 2 saat yarım çəkdi. Söhbət əslində çox mədəni ortamda keçdi. Özümə qarşı hər hansı bir təzyiq, xüsusi bir münasibət görmədim. Normal, mədəni şəraitdə dindirmə prosesi aparıldı. İlqar Məmmədovla bağlı xüsusi suallar verilmədi. Deyilən məbləğlə bağlı sual olmadı. Özləri də bilirdilər ki, bu sual əhəmiyyətsizdir. Amma onların işi idi. Bu baxımdan, dedilər ki, maliyyə yardımı olubmu? Belə bir şeyin mümkünsüzlüyü barədə cavabımı verdim. Araşdırmaların davam etdiyini dedilər. Ehtiyac yaranarsa, yenidən çağıracaqlar".

**REAL funksioneri İran səfirliyinin məsələ ilə bağlı susqunluğu barədə bunları deyib:** "Bu onların daxili işidir. Bu barədə bir söz deyə bilmərəm. Amma hər halda, ehtiyac duyarlarsa, özlərinə qarşı iddialara cavab vermək istəyərlərsə, mətbuat vasitəsilə mövqe bildirə bilərlər. Diplomatik nümayəndəlikdir, özləri bilər. Onların yerinə heç nə deyə bilmərəm. Nə baş vermişdisə, mətbuata açıqlama vermişik, rəsmi məlumat yaymışıq".

İran səfirliyinin mövqeyini öyrəndik. Nümayəndəliyin məsul şəxsi ehtiyac yaranarsa, mövqe bildirəcəklərini söylədi.

Xatırladaq ki, REAL funksionerləri- Natiq Cəfərli, Azər Qasımlı və Erkin Qədirli ilə İranın ölkəmizdəki səfirinin ikinci katibi Mehdi Arifzadə arasında hərəkatın ofisində yanvarın 19-da görüş keçirilib. Bu barədə REAL özü də sosial şəbəkələrdə məlumat yayıb. Görüşdən 8 gün sonra, yəni yanvarın 27-də virtualaz.org saytında "İran xəfiyyəsi Bakıda İlqar Məmmədovun adamları ilə görüşdü, REAL-a pul ayırdı" başlıqlı məqalə verilib. Məqalədə REAL-çıların İran səfirliyi və müxalif "milli-demokratlar" arasında vasitəçilik etməyə boyun olaraq, üstəlik, İrandan ilk maliyyə dəstəyi də aldıqları barədə şok iddialar var. Bundan sonra Baş Prokurorluq araşdırmalara başlayıb.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 21 (6635) 31 yanvar 2017

# Maşallah Əhmədova 8 il həbs cəzası verildi

**Dələduzluqda təqsirləndirilən tanınmış futbolçu Maşallah Əhmədovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mirzə Xankişiyevin sədrliyi ilə keçirilən prosesdə M.Əhmədova hökm oxunub.**

Zərərçəkmiş Yusif Əzizova olan 125 min borcunu ödəmək üçün yanvarın 30-na qədər vaxt istəyən M.Əhmədov son sözlə çıxış edib.

O, Yusif Əzizovla İrandan satmaq üçün daş gətirdiklərini, amma sözləri düz gəlmədiyi üçün işlərinin alınmadığını deyib. İş alınmadığı üçün Y.Əzizova öz torpaq sahəsini verdiyini deyən M.Əhmədov yenə də şəriki ilə razılaşmadığını deyib: "Sonra gəldi ki, torpağı istəmirəm. Gətirdiyimiz daşları istədi. Şantaj elədi ki, guya daşları oğurlamışam. Halbuki qarşılığında torpağı vermişdim. Amma Yusif nə istəyir bilmirəm. Ev istəyir, maşın istəyir bilmirəm. Bunu kimlər öyrədir, nə etmək istəyir bilmirəm. Ev istəyirdi, verdim, amma istəmədi. Dirənib ki, 125 mini verməlisən. Daşları verdim, ev də verdim. Deyirdi ki, mənə kompensasiya da verməlisən. 20 min də kompensasiya verdim. Məni tutdurmaqmı istəyir? 57 yaşımda başıma ilk dəfədir belə bir iş gəlir. Məni şantaj edirlər".



**M.Əhmədov son sözündə zərərçəkmişə dəymiş zərəri ödəməkdən imtina etmədiyini deyib:** "Daş istəyir verirəm. Oğlumun maşınını satdım. Ev də verirəm. Cırmaq-cırmaq ordan-burdan pul tapmışam. 3 maşın daşa görə məni şantaj edir. 3 maşın daş 17 min edir. Gömrüyə ödənilən rüsumla bərabər 52 min pul alıb. 3 maşında 15 min pul qalırdı. 52 mini də götürdü, indi də 125 min istəyir".

M.Əhmədov son olaraq Y.Əzizova 30 min pul və 70 min dəyəri olan ev təklif etdiyini deyib. Ancaq zərərçəkmiş Yusif Əzizov məhkəmənin sualına cavab olaraq bu təkliflə razılaşmadığını bildirib.

**M.Əhmədov məhkəmədən ədalətli qərar çıxarmasını istəyib və sona qədər mübarizə aparacağını deyib:** "Bu, kimlərinsə sifarişidir. Mən sona qədər savaşacam. Oğluma da deyirəm ki, narahat olmasın. Allahdan başqa heç kimdən qorxmuram. Allah bilir ki, bu, şər və böhtandır".

Məhkəmə yekun qərar üçün müşavirəyə yollanıb. Məhkəmə heyəti müşavirədən sonra qərarı elan edib.

Elan olunan hökmdə qeyd edilir ki, Yusif Əzizovdan şərikli olaraq gətirdiyi daşları mənimsəməklə yanaşı, oğlunu işə düzəltmək adı ilə 15 min manat da pul alıb. Yusif Əzizov İrandan daş gətirmək üçün Maşallah Əhmədovla şərik olmaq üçün 58 min manat pulunun olduğunu deyib.

Onlar şərik olaraq 3 maşın daşı satmaq məqsədilə Azərbaycana gətiriblər. Şəriklər "Baksol" yolunda icarəyə sex götürüblər. Daşların bir hissəsi satıldıqdan sonra şəriklər arasında narazılıq yaranıb və Yusif Əzizov polisə şikayət edib.

Bundan başqa, Maşallah Əhmədov Əzimov Fikrət adlı şəxsdən İmişli rayonunda abadlıq işləri görmək üçün sement alıb. Bunun üçün də Fikrət Əzimova 4 min manat borcu qalıb. Maşallah Əhmədov bunu etiraf edərək borcunu ödəyəcəyini deyib.

Maşallah Əhmədovun başqa şəxslərin də etibarından sui-istifadə edərək onları aldatdığı hökmdə qeyd edilir. Hökmə əsasən Maşallah Əhmədov 8 il müddətinə azadlıqdan məhrum edilib və məhkəmə zalında qandallanıb.

Xatırladaq ki, prokuror M.Əhmədovun törətdiyi əməllərə görə 9 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Qeyd edək ki, M.Əhmədov 2015-ci il dekabr ayının 14-də Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Rəsmi məlumata görə, bizneslə məşğul olan "Neftçi"nin keçmiş futbolçusu Bakıda bir neçə nəfərə 150 min manatdan artıq dəyərdə xaricdən daş plitə gətirəcəyini vəd edib. M.Əhmədovun sözünə əməl etmədiyi və həmin şəxslərin pulunu qaytarmadığı deyilir.

Binəqədi Rayon Məhkəməsi M.Əhmədov barəsində seçilmiş həbs-qətimkan tədbirini ləğv etmişdi. Tanınmış futbolçu ev dustaqlığına buraxılmışdı.

Məlumat üçün bildirək ki, Əhmədov 1977-ci ildən "Neftçi" klubunda oynayıb, 1995-ci ildə əsas milli komandada məşqçi, U-21-də isə baş məşqçi funksiyasını yerinə yetirib. O, 2008-ci ilin dekabrından etibarən İsgəndər Cavadovun rəhbərlik etdiyi Azərbaycan Regional Futbol Federasiyaları Assosiasiyasının vitse-prezidentidir.

❑ İlkin MURADOV



## Bakıda avtobus iki qardaşı vurdu; biri öldü

**Bakıda 16 gün əvvəl avtomobillə vurulan şəxs ölüb. Musavat.com-un Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, yanvarın 13-də Xətai rayonunun G.Mehmandarov küçəsində Bakı şəhər sakini Şəbəddin Məsumov 40 saylı marşrut xətti üzrə idarə etdiyi "Daevoo" markalı avtobusla yolu keçən paytaxt sakinləri Maşallah Məmmədovu və qardaşı Namiqi vurub. Xəsarət alan N. Məmmədov yanvarın 29-da evində ölüb.**



## "07" 30 yaşlı qadını vurub

**Bakıda 30 yaşlı qadını avtomobil vurub. "Report"un xəbərinə görə, hadisə Nizami rayonunda qeydə alınıb. Belə ki, yolu keçmək istəyən 1987-ci il təvəllüdlü Rəşidova Gülnar Hümmət qızını "VAZ 2107" markalı avtomobil vurub. Qadın ağır xəsarət alıb.**

G.Rəşidova xəstəxanaya yerləşdirilib. Onun vəziyyəti orta-ağır kimi qiymətləndirilir.

Faktla bağlı araşdırma aparılır.

## Ağcabədidə vətəndaş ov tüfəngi ilə özünü vurub

**Ağcabədi rayonunda yaşayan şəxs ov tüfəngindən açılan atəşdən xəsarət alıb. APA-nın verdiyi məlumatına görə, yanvarın 29-da Ağcabədi rayonunun Taxtakörpü kəndində məskunlaşan Laçın rayon sakini Əmrah Məmmədov həyətlərində ov tüfəngi ilə ehtiyatsız davrandığından açılan atəşdən ayaq nahiyəsindən xəsarət alıb və xəstəxanaya yerləşdirilib.**

Laçın RPŞ əməkdaşları tərəfindən hadisə yerindən müvafiq sənədləri olmayan "İJ-16" markalı ov tüfəngi götürülüb.

Araşdırma aparılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Babayev Mustafa Elxan oğlunun adına olan**
**- Liman Təchizat "MMC",**
**- Xəzər Təminat "MMC",**
**- Snab Servise Marine "MMC",**
**- Dəniz Texnologiya "MMC",**
**- Texniki Kompleks 2016 "MMC",**
**- Naviqator-N "MMC"**
**müəssisələrinin Dövlət Reystrindən çıxarışları və nizamnamələri itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 21 (6635) 31 yanvar 2017

# Piyadalar üçün 100 manatlıq cərimə - zərurət, yoxsa...

**Vaqif Əsədov:** “Cərimə məbləğinin yüksək olması nizam-intizama təsir göstərəcək”

**Ərşad Hüseynov:** “Hər halda, həyəcan təbili çalmaq üçün əsas var”

**Bir neçə gündür ki, ictimaiyyətdə yol hərəkəti qaydalarını pozan piyadaların 20 manat deyil, 100 manat cərimələnəcəkləri ilə bağlı məsələ geniş müzakirə obyektinə çevrilib. İnsanlar öz narazılıqlarını bildirərək, cərimələrin bu qədər artırılmasının doğru olmadığını söyləyirlər.**

Öncə qeyd edək ki, ötən ilin sonlarında yollardakı dəmir və beton arakəsmələrin üzərindən keçib yolun hərəkət hissəsinə çıxan piyadaların həbs olunması ilə bağlı Milli Məclisə göndərilən qanun layihəsi dəyişdirilib. Belə ki, layihənin ilkin variantında beton və dəmir arakəsmələrin üzərindən aşıb, yolu keçənlərin 15 günədək inzibati həbs cəzası ilə cəzalandırılması təklif olunurdu. Lakin bu təklif məqbul sayılmayıb. Təklif olunub ki, yuxarıda qeyd etdiyimiz qaydaları pozan piyadalar 100 manat cərimələnsinlər. Layihə Milli Məclisə göndərilib və yaz sessiyasında müzakirə olunacaq.



**Məsələ ilə bağlı Baş Dövlət Yol Polis İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev də açıqlama verib. Belə ki, K. Əliyev azvision.az saytına açıqlamasında bildirib ki, hər bir piyada üçün cərimənin artırılmasından söhbət getmir. Qurum rəsmisi bildirib ki, cərimələrin artırılması beton və dəmir maneələrin aşılması ilə yolun hərəkət hissəsinə çıxan piyadalar üçün nəzərdə tutulub:** “Digər hallarda isə cərimə məbləği 20 manat olaraq qalır. Adıçəkilən cərimə artımı ilə bağlı müzakirələr olacaq. Son nəticədə hansı qərar qəbul olunacaqsa, yol hərəkəti qaydalarını pozan piyadalara qarşı bizim əməkdaşlar tərəfindən həmin cərimə sanksiyası tətbiq olunacaq”.

**Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov bildirdi ki, piyadalarla bağlı cərimələrin sərtləşdirilməsi nizam-intizamın qaldırılmasına təsir edəcək:** “Vətəndaş, sürücü, yol polisi və Bakı şəhər sakini olaraq bildirirəm ki, bəli, piyadalarla əlaqəli tətbiq edilən cərimə məbləğinin daha yüksək olması nizam-intizamın qaldırılmasına təsir göstərəcək. Bu şərtlə ki, cərimənin ödənilmə mexanizmi də düzgün həyata keçirilsin. 2016-cı ildə piyada vurma halları 60 faizə qalxıb. Bu, çox ciddi rəqəmdir. Özlüyümdə bunun nə üçün belə qalxmasını təhlil edirəm və qənaətə gəlirəm ki, 50 faiz piyada tərəfindən cərimə məbləğinin ödənilməməsi, görünür, hadisələrin çoxalmasına təsir göstərir. Ona görə razıyam ki, piyadalarla əlaqəli törədilən xətalarla bağlı maksimum cərimələr tətbiq olunsun və onun ödənilməsi mexanizmi sərtləşdirilsin. Piyada bunu ödəməsə, ölkədən çıxa, bankdan kredit götürə bilməsin. Bank nəzərə alsın ki, cəriməni ödəyə bilməyən vətəndaş krediti necə qaytaracaq. Yaxud da digər sosial müavinətlərdən məhrum edilsin, işləyirsə, onun maaşından, tələbədirsə, təqaüdündən bu cərimə məbləği tutulsun. İşləmirsə, icra orqanları, məhkəmələr bu pulu ondan alsın. Əgər belə olarsa, sizi əmin edirəm ki, hadisələr minimuma enəcək.”

**Müsahibimizin sözlərinə görə, piyadalarda arxayınçılıq yaranıb:** “Düşünürlər ki, cəriməni ödəmədik və bizə heç nə edən olmadı. Belə deyil axı. Artıq siyahı da hazırlanıb və yaşayış yerlərinə, icra orqanlarına, təhsil müəssisələrinə biz lazımi informasiyanı göndərmişik. Çox güman ki, cərimələrin ödənilməsi məsələsi də baş tutacaq. Nəticədə həm də nizam-intizam yüksələcək. Son illər mütəmadi olaraq "Yol hərəkəti haqqında" Qanuna, İnzibati Xətalar Məcəlləsinə edilən əlavə və dəyişikliklər, tətbiq edilən yüksək məbləğdə cərimələr, ən azından nizam-intizamı yüksəldib, mədəniyyəti formalaşdırıb. Misal da deyə bilərəm ki, sərxoş vəziyyətdə avtomobilin idarə edilməsi ilə bağlı yüksək məbləğdə cərimənin tətbiqi problemi həll edib. Eyni zamanda bu xüsusda təhlükəsizlik kəmərinin bağlanmaması məsələsini də qeyd edə bilərik. Sürət həddi ilə bağlı 4 formada cəza var. Təhlilə nəzər saldıqda görürük ki, bu istiqamət üzrə də müsbətə doğru dəyişiklik var. 2016-cı ildə sürət həddinin aşılması səbəbindən Bakı şəhəri üzrə baş verən yol nəqliyyat hadisələri 37 faizə enib. 2015-ci ildə bu, 46 faiz idi. Bu formada təhlil aparan zaman görürəm ki, piyadalarla bağlı cərimələrin sərtləşdirilməsi ilə eyni zamanda onların ödənilməsi mexanizmi də öz həllini tapmalıdır. Adında cərimə borcu olanlara heç bir imtiyaz verilməməlidir".

**Ekspert Ərşad Hüseynov isə yaşayış məntəqələrində piyada vurma hallarının daha çox olmasına diqqət yönəltdi:** “Ölçü statistikasına baxdıqda görə bilərik ki, ölkə üzrə cinayət xarakterli yol nəqliyyat hadisələrinin 40 faizini, Bakıda isə 50 faizini piyada vurma hadisələri təşkil edir. Son illər isə bu rəqəm 60 faizə yaxınlaşıb. Hər halda, bu, həyəcan təbili çalmaq üçün əsasdır. Biz bir piyada olaraq çox intizamsızıq. Deyilən cərimənin artımı da hesab edirəm ki, müəyyən psixoloji təsir göstərəcək. İnsanlar düşünəcəklər ki, 100 manat cərimələnə bilərlər. Bütün qayda pozan piyadalar üçün cərimələr artırılmayacaq. Müzakirə edilən qaydalara görə, yolda dəmir və ya beton sədd varsa, onu aşan piyadalar 100 manat cərimələnəcək. İdeya bundan ibarətdir. Adi küçələrdə, prospektlərdə piyadaların cəriməsi olduğu kimi qalır. Görək Milli Məclis bu məsələyə necə yanaşacaq. Bir daha qeyd edirəm ki, yalnız yüksək sürətli yollarda cərimələrin artırılması nəzərdə tutulur”.

❑ **Əli RƏİS**

# Bakı küçələrin qardan niyə yaşlı qadınlar təmizləyir?

Qurumlar o işçilərdən imtina edir, yolların təmizlənmə qaydası isə başqa formada olmalıdır

**Son iki gündə Bakı küçələrində piyadaların da, sürücülərin də müşahidə etdiyi bir mənzərə var. İri magistral yolların qırağında, eləcə də məhəllələrarası yollarda qar yaşlı qadın işçilər tərəfindən təmizlənib, yolun içinə atılır. Bu, bəzi hallarda təhlükəli vəziyyət də yaradır.**

Bu gün Ziya Bünyadov prospekti ilə hərəkət edən sürücü həmkarlardan biri dedi ki, aşağı sürətlə yolun sağı ilə hərəkət edərkən qəfil şəkildə maşına bir yekə qar topası fırladıldığını hiss edib. Maşına zərblə dəyən qar yığını isə yolun sağında onu təmizləyən süpürgəçi qadının “əməlinin nəticəsi” idi. Qadın üz-gözünü, başını bərk-bərk bağladığı üçün çox güman ki, zərblə atdığı bir bel dolusu qarın da hara yönləndiyindən xəbərsiz idi. Əslində hər qar sonrası belə mənzərələrlə qaşılaşırıq. Bunun bir qaydası, düzəni olmalı deyilmi?



“Azəryolservis” ASC-nin mətbuat katibliyindən mətbuata verilən məlumata görə, qar təmizləyən və qumsəpən texnikalar avtonəqliyyat vasitələrinin hərəkətində problem müşahidə olunan ərazilərə cəlb edilib. Qısa müddətdə həmin yollarda qarın təmizlənməsi və duz-qum qarışığının səpilməsi işləri həyata keçirilib. Nəticədə hərəkətin təhlükəsizliyi və fasiləsizliyi təmin olunub.

“Azəravtoyol” ASC-yə məxsus maşın-mexanizmlər və canlı qüvvə gecə boyu qarın ən çox yağdığı və buzlaşmanın olduğu ərazilərdə vəziyyətə nəzarət edib, hərəkətin təhlükəsizliyinin təmin olunması məqsədi ilə gecə və səhər saatlarında buzlaşma baş verən yollara qum-duz qarışığı səpilib.

Qeyd edək ki, gecə boyu Bakı şəhərinin küçə və prospektlərində, həmçinin respublikanın avtomobil yollarında həyata keçirilmiş qabaqlayıcı tədbirlər nəticəsində avtonəqliyyat vasitələrinin hərəkətində hər hansı bir problem müşahidə olunmayıb. Hazırda da yollarda vəziyyət normaldır.

Qurum hər qar yağan zaman iddia edir ki, yolların qardan və buzdan təmizlənməsi üçün bütün texnika, maşın-mexanizmlər hazır vəziyyətə gətirilib, kifayət qədər duz və qum ehtiyatı toplanıb. Bakı şəhərində balansda olan yollarda, küçə və prospektlərdə, xüsusilə daha tez qar tutan və buzlaşan yollarda xidmət aparmaq üçün öncədən maşın-mexanizmlər əraziyə çıxarılacaq.

**“Azəryolservis” ASC eyni zamanda Bakıda yolların qardan təmizlənməsinə qadınların cəlb edilməsi ilə bağlı iddialara cavab verib. Qurumun mətbuat katibi Anar Nəcəfli bəyan edib ki, “Azəryolservis” işçi qüvvəsi kimi qadınlardan istifadə etmir:** “Yenə də bəzi xəbər saytları yolları qardan təmizləyən qadınların şəkillərini paylaşaraq heç bir aydınlaşdırma aparmadan nədənsə "Azəryolservis" ASC-nin yolların qardan təmizlənməsi üçün ayrılan texnika, maşın-mexanizmlərin sayı ilə bağlı yaydığı statistik məlumatları müqayisə edirlər. Bir daha deyirəm ki, “Azəryolservis” ASC-nin balansında olduğu yolların qardan təmizlənməsi üçün kifayət qədər texnikası və kişi işçisi var. Yolların qardan təmizlənməsi üçün “Azəryolservis” ASC işçi qüvvəsi olaraq qadınlardan istifadə etmir!!!"

Sözügedən qadınlar qar təmizləyən zaman fəaliyyət göstərdikləri MTK-nın adı yazılmış gödəkcələri geyinir. MTK-lar isə bu barədə danışmaq istəmirlər.

Avropa ölkələrində isə adətən bu sayaq qarlı havalar zamanı asfaltların isidilmə sistemi işə düşür. Bu səbəbdən də qarı xüsusi olaraq maşınların təmizləməsinə ehtiyac qalmır. Bundan başqa, yerə düşən qarın həcmi normadan qat-qat artıq olduğu zaman qartəmizləyici maşınlar magistral, eləcə də kənar yolların təmizləməsini tamamən icra edirlər. Bu halda insan qüvvəsinə ehtiyac qalmır.

❑ **Sevinc TELMANQIZI**



## Xoruzu həbs etdilər - iki qonşunu dalaşdırdığı üçün

Hondurasda bir xoruzu həbs ediblər. Buna səbəb onun iki Truxilyo şəhər sakini arasında insident yaratması olub. Bu barədə "Daily Mail" xəbər verib. Konflikt şəhər sakinlərindən birinin öz sahəsində qonşunun xoruzunu görməsindən sonra baş verib. Onun xoşuna gəlməyib ki, xoruz onun ağaclarına dırmaşıb və səs salıb. Kişinin etirazları qonşusunu, yəni xoruz sahibini çox narazı salıb və onlar buna görə dalaşmağa başlayıblar. Dava zamanı qonşulardan biri digərini öldürməklə təhdid etdiyi üçün qonşular polis çağırıblar.

Asayiş keşikçiləri isə hadisə yerinə gələndə mübahisə edən tərəfləri həbs etmək yerinə xoruzu tutaraq türməyə aparıblar. Onlar söz verdilər ki, dalaşan qonşular barışdıqları halda xoruzu geri qaytaracaqlar.

Xoruzun türmə fotoları Hindurasda sosial şəbəkə istifadəçiləri tərəfindən ciddi maraqla qarşılanıb. Şəkillərdən birində polislər xoruzun boynuna identifikasiyalaşmış birka vururlar. Digər kadrda isə xoruz kamerada, dəmir barmaqlıqlar arxasında oturub. Ötən ilin oktyabrında isə Şotlandiyanın Dandi şəhərində polis yol hərəkət qaydalarını pozan toyuğu həbs etmişdi.

# Evə yığdıqları əşyaların altında öldülər




İspaniyanın Alikant şəhərində bir ailə içində kilolarla geyim olan şkafın altında qalaraq ölüb. 50 yaşlı kişi, onun 49 yaşlı həyat yoldaşı, eləcə də 12 yaşlı qızları 28 yanvarda dünyasını dəyişib. Bu hadisə isə növbəti gün, evin 18 yaşlı qızı tərəfindən aşkarlanıb. Qız otaqdan çıxmağa cəhd etsə də, qapının bloklanmış olması vəziyyəti qəlizləşdirib. O, çətinliklə də olsa otaqdan çıxanda evin ortasında paltar topası görüb və polisi çağırıb. Ər-arvad Marokkodan gəlmə, ispan mənşəli olub. Onlar əşyalarını saxlamaq üçün evdə tavana qədər uzanan rəflər düzəldiblər. Yığılan paltarları isə onlar periodik olaraq satırdılar. Bundan başqa, ailə həm də Dioqen sindromundan əziyyət çəkirdi. Sözügedən xəstəlik köhnə əşyaları yığma, sosial izolyasiya və apatiyanı özündə ehtiva edir.

# Qaradərili nigeriyalı ikinci dəfə ağ dərili, göy gözlü uşaq dünyaya gətirdi



**İngiltərənin Milton Keynes şəhərində yaşayan 35 yaşlı Nigeriya əsilli qaradərili Ketrin Hovart mütəxəssislərin "milyonda bir ehtimal" olaraq təsbit etdiyi bir durum yaşayıb. Belə ki, o, tamamən ağ irqdən olan ikinci körpəsini də dünyaya gətirərək, dünyadakı ilk iki ağdərili uşağa sahib olan qaradərili ana oldu. Nigeriyalı qadın üç il əvvəl iyunun 1-də oğlu Cohanı dünyaya gətirəndə mütəxəssislər demişdilər ki, həyat yoldaşı Riçard Hovart ağdərili bir ingilis olsa da, 32 yaşlı qadının "tamamən ağ irqdən olan" bir körpə dünyaya gətirməsinin "milyonda bir ehtimal" daxilində olduğunu demişdi.**

Mütəxəssislər cütlüyün gələcəkdə ağ bir körpəyə sahib olmasının da imkansız olduğunu, çünki belə gen kombinasiyasının bir daha təkrarlanmayacaq qədər nadir olduğunu dedilər. Amma buna baxmayaraq, nigeriyalı qadının mavi gözlü, ağdərili bir qızı da dünyaya gəldi. İlk övladının dünyaya gəlməsindən sonra İngiltərənin "Daily Mirror" qəzetinə açıqlama verən Ketrin Hovart aşağıdakıları deyib: "Doğumdan sonra Cohanı mənə gətirən tibb bacısı bir ona, bir də mənə diqqətlə baxırdı. Gözlərinə inana bilməmişdi. Bəzi körpələrin doğumdan sonra dəri rəngi dəyişə bilir. Amma Conahda belə bir şey baş vermədi. Həkimlər mənə dəyişik bir gen daşıdığımı, uşağımın da bu səbəbdən ağ olduğunu söylədi. Ancaq mənim bütün ailəm Nigeriyada və bildiyim qədər soyumda tək bir ağdərili belə yoxdur".




**QOÇ** - Görüşə çıxmaq, yeni işlərə başlamaq, sövdələşmələrdə iştirak etmək üçün səmərəli vaxtdır. Çalışın ki, ürəyinizin səsinə qulaq asasınız. Ağır fiziki işlərdən uzaq olmağa cəhd edin.

**BUĞA** - Nəhayət ki, ulduzlar bürcünüzə maliyyə səxavəti göstərməyə yaxın olacaq. Saat 13-16 arası bu istiqamətdə daha əlverişli şanslar qazana bilərsiniz. Qərarlarınızda qəti olun.

**ƏKİZLƏR** - Yaxşı olar ki, fəaliyyətə ara verib daha çox istirahətlə məşğul olasınız. Bunu etməsəniz, ümumi yorğunluğunuz və daxili süstlüyünüz səngiməyəcək. Səfərə çıxmayın.

**XƏRÇƏNG** - Düşərli bir gün yaşayacaqsınız. Özünüzü nikbin səviyyədə kökləyin. Çalışın ki, ətrafda hər şeyin gözəl olduğunu duyasınız. Bu gündən etibarən taleyinizdə dönüş yaranmalıdır.

**ŞİR** - Məhəbbət aləmində romantik məqamlar yaşamaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Əmin olun ki, cəhdləriniz boşa çıxmayacaq. Riskli sövdələşmələrdən yayının.

**QIZ** - Daxili sabitliyinizi qorumaq istəyirsinizsə, keçmişdə olanları müzakirə etməyin. Onsuz da olmuşları düzəltmək mümkünsüzdür. Özünüzü sevgiyə həsr edin ki, xilas olasınız.

**TƏRƏZİ** - Mübahisəli gün olsa da, Göy qübbəsi maliyyə durumunuzda irəliləyiş olacağını bildirir. Bir şərtlə ki, kisənizdən etibarsız insanlara borc verməyəsiniz. Yoxsa müflisləşəcəksiniz.

**ƏQRƏB** - Günün birinci yarısında bütün işlərinizi yekunlaşdırmağa çalışın. Çünki sonrakı müddətdə buna imkan tapmayacaqsınız. Ulduzlar nahardan sonra maraqlı görüşlərdən xəbər verir.

**OXATAN** - Günün birinci yarısında müəyyən gərginliklə baş-başa qala bilərsiniz. Odur ki, həmin ərəfədə bütün vacib planlarınızı təxirə salmalısınız. Fəaliyyətdə öz məsuliyyətinizi anlayın.

**OĞLAQ** - Kifayət qədər məhsuldar gündür. Kiminsə işlərinizə mane olacağını ağlınıza gətirməyin. Əksinə, nəzərdə tutduğunuz planların böyük əksəriyyəti öz həllinə yaxınlaşacaq.

**SUTÖKƏN** - Planetiniz olan Uran narahat kosmik bucağa düşdüyündən fəaliyyətinizin səmərə verməyəcəyini bəyan edir. Odur ki, daha çox istirahətə yer ayırmalı, xəstəliyə təslim olmamalısınız.

**BALIQLAR** - Ulduzların düzümü səhhətinizdə problemlər olacağını bəyan edir. Bunun qarşısını almaq üçün ilk növbədə əsəblərinizi qorumalısınız. Nahardan sonra büdcənizdə artım gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsanların 80 faizi uçmaqdan qorxur



Yer kürəsində yaşayan əhalinin 80%-dən çoxu uçmaqdan qorxur. Onların da 5%-i, ümumiyyətlə, təyyarədən imtina edərək, yerüstü və su vasitəsilə olan nəqliyyat vasitələrinə üstünlük verir. Uçmaqdan və hündürlükdən qorxmaq - aerofobiya adlanır. Bir çoxları təyyarənin 10 kilometr hündürlükdən yerə düşəcəyindən qorxur. Lakin bu, təyyarənin qanadlarının altındakı təzyiq səbəbindən mümkün deyil. Avtomobil şosse üzərində necə dayanırsa, təyyarə də havada elə rahatlıqla dayanır. Hətta pilot sükanı buraxsa belə, o, su üzərində üzən qayıq kimi havada hərəkət edəcək.

Pilot və stüardessalar "riskə" görə əlavə pul bonusları almırlar. Buna görə də təyyarə sağlam fikir və təbiət qanunlarına zidd deyil, onlar sayəsində uçur.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100